

Milli azadlıqdan şirin nemət yoxdur!

# 23 aprelə gedən yol

## 17 gün qalırdı...



Bax səh. 2

YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

06 aprel 2024-cü il, şənbə

№ 060 (6646)

Qiyməti 60 qəpik

# Cənubi Qafqaz üçün cızılan plan gələcəkdə böyük fəlakətə gətirə bilər

## İlham Əliyev: Bunlar çox mənfi fəsadlara gətirə biləcək addımlardır və bunun yeganə səbəbi Qarabağı işğaldan azad etməyimizdir



Bax səh. 2

# Avropa Komissiyasının prezidenti də məruzə etdi

Bax səh. 2

## Parlamentdə Brüssel görüşü ilə bağlı məsələ qaldırılıb



Bax səh. 3

## Uzaq ölkələr də yaxın olurlar

Azərbaycanın ardıcıllıqla davam etdirdiyi xoş mərama əsaslanan çoxvektorlu xarici siyasət kursu ölkəmizə bütün dünyada böyük nüfuz qazandırıb. Bu gün yaxın qonşuluqda, geniş İslam coğrafiyasında, Türk birliyində, Avropa İttifaqında (Aİ) respublikamıza dərin hörmət bəslənilir. Müxtəlif məkanlarda Azərbaycanın Lideri İlham Əliyevin dövlətlər, regionlar və sivilizasiyalar arasında əməkdaşlıq əlaqələrinin möhkəmlənməsinə mühüm töhfələr verdiyi, daim qlobal həmrəylik təşəbbüslərindən çıxış etdiiyi yüksək dəyərləndirilir. O cümlədən respublikamız son illərdə uzaq Afrikanı...

Bax səh. 3

## Azad ərazilər "yaşıl enerji" ixracında əsas güc mənbəyi olacaq



Bax səh. 5

## Susqunluğun səbəbi ...

Qərbin Ermənistan üzərindən qurduğu oyunların əsl hədəfləri bəllidir. Belə ki, "Ermənistana dəstək" adı altında bölgəyə yerləşmək istəyən ABŞ-Aİ cütlüyü vaxtilə başlatdığı, sonradan isə yarımçıq qalan fəaliyyətini davam etdirmək istəyir. Bu fəaliyyət 30 ilə yaxın məhz Ermənistanın və separatçı xuntanın əli ilə həyata keçirilib. Başqa sözlə, illərlə Cənubi Qafqazda siyasi sabitliyin formalaşmasına, hərbi dincliyin yaranmasına, ən əsası iqtisadi inkişafa mane olan güclər yeni planlar qurur. 2020-ci il Vətən müharibəsi və 2023-cü il lokal antiterror tədbirləri ilə onların planlarını puç etmiş Azərbaycan bölgədə yeni siyasi-hərbi reallıqlar formalaşdırıb ki, Qərb bu yeni reallıqlarla barışmaq istəmir. Nəticədə, "Ermənistana dəstək" görüntüsü altında bölgəyə yeni demarşını hazırlayır.

Bu güclərin nəticə etibarı ilə hədəfləri bəllidir - Ermənistanın əli ilə bölgəni yeni münaqişəyə cəlb etmək ABŞ-Aİ cütlüyünün ilkin arzusudur. Müzakirə predmeti olan "hərbi pakt" isə ABŞ və Aİ-nin Ermənistanın əli ilə regiona təsir imkanlarını leqallaşdırmağa hədəflənib. Bu isə Azərbaycanla yanaşı, ümumilikdə region ölkələrinin maraqları ilə uzlaşmır. Çünki burada...

Bax səh. 5

## Yeni peykimiz ölkəmizə hansı faydalar verəcək?

Azərbaycan növbəti optik müşahidə peykini 2026-cı ildə orbitə buraxmağa hazırlaşır. Kosmik Agentliyin ("Azərkosmos") İdarə Heyətinin sədri Saməddin Əsədov bildirib ki, ötən il Bakıda keçirilən 74-cü Beynəlxalq Astronavtika Konqresi çərçivəsində "Azərkosmos" və "Israel Aerospace Industries" (IAI) şirkəti arasında Azərbaycanın yeni müşahidə peyklərinin hazırlanması üzrə əməkdaşlıq müqaviləsi imzalanıb və razılaşmağa əsasən, "Azersky-2" kosmik peykinin dünya peyk ailəsinə qoşulması nəzərdə tutulur.

Dünyanın ən güclü texnologiya şirkətlərindən olan "Israel Aerospace Industries" şirkəti yeni peykin hazırlanması üzrə işlərə ötən ilin sonlarından başlayıb və peykin layihələndirilməsi, yığılması, inteqrasiyası və sınağı azərbaycanlı mütəxəssislərin iştirakı ilə IAI tərəfindən aparılmaqdadır. "IAI" proqram çərçivəsində "Azersky-2" üzrə iki peyk hazırlanması planlaşdırılır. İsraillə birgə 2026-cı ildə yeni peykin...

Bax səh. 5

## Aİ-nin "öldürücü olmayan silah"lar manipulyasiyası

Dünyanın ən yüksəkgəlirli, amma qaranlıq biznesi sayılan silah alveri siyasi güclərin əsas manipulyasiya alətlərindəndir. Başqa sözlə, dünyada müharibələrin, kataklizmlərin, qarşıdurmaların yaşanmasını "ən çox arzulayanlar" məhz bu sahəyə "iqtisadi gəlir mənbəyi" kimi baxan güclərdir. Dünyada baş verən müharibələr silah biznesinin tərəflərini maraqlandıran ən mühüm amildir - bu baxımdan da, silahların əsas funksiyası müdafiə refleksinin artırılmasından daha çox iqtisadi gəlirlə izah olunur.

Xüsusilə, geniş silah satışı ilə məşğul olan ölkələr öz iqtisadi maraqlarını təmin etmək üçün bir çox coğrafiyalarda kataklizmləri körükləyir. Aİ bu məsələdə hər zaman "seçilir" - nəzərə alsaq ki, "köhnə qitə"nin bəzi dövlətləri silah biznesinin əsas tərəfləridir, onlar özlərinin əsas məramlarını pərdələmək üçün bir çox yollara əl atırlar. Məsələn, Ermənistanı silahla təchiz edən Fransa bu qeyri-qanuni fəaliyyətini...

Bax səh. 6

## Puç ömrün aqibəti

Əlbəttə, İvan İliç də ömrünü onlar kimi yaşayıb. Onun da həyatının orta dirəyi, mənəvi istinad nöqtəsi, Allaha, peyğəmbərə, dinə dərunі inamı olmayıb, o da öz maraqlarını hər şeydən, hər kəsdən üstün bilib, məhkumlara, məhbuslara divan tutmasa belə onların acılarını qəlbinə yaxın buraxmayıb, başqalarından üstün olduğunu duymaqdan, insanların taleyinə sərəncam verməkdən zövq alıb. Bu sayaq zövqün ağuşunda hətta kimisə ədalət məhkəməsinin caynağından almaq, zindandan buraxdırmaq belə iyrənc bir təşəxxüsdür, qatı bir eqoizmdir.

Nəticədə əcəl İvan İliçi hazırlıqsız yaxalayıb, o, Yer üzündəki bütün dayaq nöqtələrindən - sağlam canından, vəzifəsindən, sərvətindən, dəbdəbəli mülkündən, dostlarından, həmkarlarından, hətta doğmalarından, ailəsindən gözgörəti məhrum olandan sonra söykənməyə bir istinadgah, bir həqiqət, döyməyə bir təsəlli qapısı tapmır. Allaha, dediyim kimi, inanmır, dini duyğudan, saf mərhəmətdən məhrumdur, hərçənd bunlar...

Bax səh. 7

## Üçtərəfli görüş və mövqelər...



Bax səh. 6

## Təhsil proqramlarının hazırlanması ...



Bax səh. 6

# Cənubi Qafqaz üçün cızılan plan gələcəkdə böyük fəlakətə gətirə bilər

## İlham Əliyev: Bunlar çox mənfi fəsadlara gətirə biləcək addımlardır və bunun yeganə səbəbi Qarabağı işğaldan azad etməyimizdir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 5-də Türkiyənin sabiq xarici işlər naziri, Türkiyə Böyük Millət Məclisinin millət vəkili və NATO Parlament Assambleyasındakı nümayəndə heyətinin rəhbəri Mövlud Çavuşoğlunu qəbul edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Mövlud Cavuşoğluya ölkəmizdə böyük hörmət bəsləndiyini vurğulayaraq, onun bütün dövrlərdə Azərbaycanın yanında olmasını yüksək qiymətləndirdiyini bildirdi və xalqımızın bunu çox dəyərləndirdiyini qeyd etdi. Prezident İlham Əliyev vurğuladı ki, xüsusilə İkinci Qarabağ müharibəsi zamanı Mövlud Çavuşoğlu müntəzəm surətdə çox önəmli açıqlamalar verib. O, bütün dünyaya Türkiyənin səsini çatdırıb ki, Azərbaycan tək deyil, Türkiyə onun yanındadır. Bu açıqlamalar öz növbəsində Azərbaycanın işinə qarışmaq istəyən qüvvələrin qarşısının alınmasında önəmli rol oynayıb.

Dövlətimizin başçısı bu gün Azərbaycan-Türkiyə birliyinin daha da güclənməsinin önəmini qeyd edərək bildirdi ki, hazırda dünyada, o cümlədən Cənubi Qafqazda proseslər çox təhlükəli istiqamətdə gedir və bununla bağlı Azərbaycan haqlı olaraq öz narahatlığını ifadə edir. Belə ki, Cənubi Qafqaz üçün cızılan plan gələcəkdə böyük fəlakətə gətirə bilər.

Azərbaycan Prezidenti bildirdi ki, Qarabağı işğaldan azad etməyimiz, xüsusilə keçən ilin sentyabrında həyata keçirdiyimiz antiterror əməliyyatı bəzi qüvvələri narahat edib. "Mən hər zaman deyirdim və deyirəm ki, biz haqq yolundayıq, öz əzəli torpaqlarımızı bütün beynəlxalq qanunlar çərçivəsində hərbi yolla azad etmişik", - deyə vurğulayan Prezident İlham Əliyev qeyd etdi ki, o vaxtdan bugünədək bizə olan təzyiqlər durmadan davam edir. Avropa Parlamenti təhqirlə dolu çirkin qətnamələr qəbul edib. AŞPA nümayəndə heyətimizi səsvermə hüququndan məhrum edib. Bunlar çox mənfi fəsadlara gətirə biləcək addımlardır və bunun yeganə səbəbi Qarabağı işğaldan azad etməyimizdir.



Bu gün ABŞ, Avropa İttifaqı və Ermənistan arasında Brüsseldə keçiriləcək üçtərəfli görüşə toxunan dövlətimizin başçısı bildirdi ki, bununla Cənubi Qafqaz üçün növbəti təhlükə mənbəyi yaradılır. Halbuki, son günlər həm ABŞ-ın, həm də Avropa İttifaqının yüksək vəzifəli şəxsləri onların təşəbbüsü ilə baş tutan telefon danışıqları əsnasında bizi inandırmağa çalışmışlar ki, bu görüş Azərbaycanın əleyhinə deyil. Prezident İlham Əliyev qeyd etdi ki, lakin biz bunun Azərbaycanın və Cənubi Qafqazda iş birliyinin əleyhinə olduğunu bilirik. Bu, ayırıcı xətlərin yaradılması və ölkəmizi təcrid etmək məqsədi güdür.

Dövlətimizin başçısı bir daha qeyd etdi ki, keçən ilin sentyabrından indiyədək Avropa Parlamentinin, Avropa Şurasının Azərbaycan əleyhinə bəyanatlar verməsi, Ermənistanı Cənubi Qafqazda bir silahlı forpost kimi yaratmaq cəhdləri gələcəkdə çox böyük fəsadlar törədəcək. Buna görə, biz bununla bağlı ABŞ və Avropadakı tərəfdaşlarımıza xəbərdarlıq etmək üçün açıqlamalar verdik.

Geosiyasi vəziyyətin dəyişdiyini deyən Prezident İlham Əliyev belə bir şəraitdə Azərbaycan-Türkiyə birliyinin hər zaman olduğu kimi, bu gün də güclü olmasının vacibliyini qeyd etdi və bu birliyi pozmaq istəyənlərin arzularının puç olacağına əminliyini bildirdi.

Xoş sözlərə görə minnətdarlığını ifadə edən Mövlud Çavuşoğlu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Rəcəb Tayyib Ərdoğana çatdırmağı xahiş etdi.

Mövlud Çavuşoğlu hər zaman olduğu kimi, bu dəfə də doğma Azərbaycanda olmalarından böyük sevinc hissi keçirdiklərini dedi. O, İlham Əliyevi prezident seçkilərində inamlı qələbə münasibətilə təbrik edərək, bunu Azərbaycan xalqının dövlətimizin başçısına Qarabağda Zəfər qazanan Ali Baş Komandan kimi yüksək etimadının təzahürü olduğunu dedi.

Azərbaycan Prezidentinin andiçmə mərasimindəki çıxışında Türk dünyasını bizim bir ailəmiz adlandırdığını qeyd edən Mövlud Çavuşoğlu diqqətə çatdırdı ki, dövlətimizin başçısının bu çıxışında Türk dünyasının birliyi ilə bağlı dediyi çox dəyərli fikirlər Türk dünyasında böyük məmnunluqla qəbul olunub. Mövlud Çavuşoğlu vurğuladı: "Siz dünyada önəmli bir lidersiniz və Sizin Türk dünyasının güclənməsi istiqamətində atdığınız addımlar bütün Türk dünyasına bəllidir".

Prezident İlham Əliyev qeyd etdi ki, həqiqətən də Türk dünyası bizim bir ailəmizdir və biz bu istiqamətdə çalışmalıyıq.

Mövlud Çavuşoğlu dedi ki, Azərbaycanın Qarabağ Zəfərini həzm edə bilməyən qüvvələr var və onlar bu istiqamətdə öz siyasətlərini aparmağa çalışırlar.

# Avropa Komissiyasının prezidenti də məruzə etdi

## Aİ rəsmisinin Blinkenin ardından Bakıya zəngi...

Brüsseldə keçirilən üçtərəfli görüş Ermənistan tərəfindən "miqyasından böyük" şəkildə təqdim edilməyə çalışılsa da, reallıq ortadadır. Görüşöncəsi ard-arda ABŞ Dövlət katibi Blinkenin və Avropa Komissiyasının prezidenti Ursula Fon der Lyayenin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng etməsi rəsmi İrəvan üçün "soyuq duş" xarakteri daşıyır. Günlər idi ki, Ermənistan bu görüşün mahiyyətini özünə yönəltməyə çalışısa da, ard-arda edilən zənglər və məruzələr onu göstərir ki, Aİ və ABŞ sadəcə Ermənistanı öz maraqlarının aləti kimi istifadə edir.

### Azərbaycanla hesablaşırlar

Vurğulandığı kimi, aprelin 4-də AK prezdentinin Bakıya zəngi bir sıra məqamlarla diqqəti cəlb edir. Bu, ilk növbədə Azərbaycan dövlətinin və Prezidentinin qlobal siyasətdə oynadığı rolu, tutduğu yeni bir daha önə çıxarır. Ursula Fon der Lyayenin Bakıya zəng edərək görüşlə bağlı izahat verməsi Aİnin Azərbaycanı regionun əsas dövləti kimi qəbul etməsinin göstəricisidir. Son illərdə həm siyasi, həm iqtisadi, həm də digər kontekstlərdə gerilәmələr yaşayan, adı bir sıra xoşagəlməz proseslərdə hallanan, özünün əvvəlki qüdrətini bərpa etmək üçün çabalayan Avropa kontingenti və onun təsisatlarının Qafqaza yönəlik "tədbirlərin"də Ermənistandan sadəcə istifadə etmək "arzusu" tam şəkildə ortaya çıxır. Və Avrokomissiya özü bu addımları ilə bağlı Azərbaycana izahat verməklə ölkəmizin və dövlət başçımızın qüdrətinin və nüfuzunun hansı səviyyədə olduğunu bir daha sübuta yetirir.

Avropa Azərbaycanın regionda yaratdığı yeni reallıqları və konfiqurasiyanı görür, eyni zamanda dəyərləndirir. Çünki:

- Azərbaycan son dövrlərdə atdığı addımlarla yerləşdiyimiz regionun beynəlxalq əhəmiyyətini artırır;
- Bölgədəki stabil durum cəlbediciliyi ilə göz oxşayır;
- İqtisadi - ticari yol, rentabelli və rəqəmsal daşımacılıq imkanları real olaraq təşviq edilir;
- Son 4 ildə bölgədə yeni siyasi-hərbi situasiya yaratmış Azərbaycan indi də Avroasiyanın mərkəzində yeni iqtisadi nizam formalaşdırır.

Bütün bunlar isə Cənubi Qafqazın dəyərini və siyasi əhəmiyyətini yüksəldir. Avropanın və ABŞ-ın apardığı siyasət isə bu konfiqurasiyaya bu və ya digər şəkildə müdaxilə imkanları qazanmaqdan ibartədir - hər kəs anlayır ki, bölgədə yaranacaq yeni balans Azərbaycanın qaydalarına əsasən nizamlanacaq və ən real oyunçu kimi iqtisadi əlaqələrin formatını Azərbaycan təyin edəcək. Bunun üçün də ucuz və keyfiyyətsiz Ermənistanı "oyunun" tərkib hissəsi kimi "alətə"ə çeviriblər...

### Aİ özünü niyə təhlükəyə atır?

Telefon danışığı əsnasında tərəflər Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığın inkişaf perspektivlərini müzakirə ediblər, bu xüsusda, bərpaolunan enerji, nəqliyyat bağlantıları, enerji təhlükəsizliyi və digər əməkdaşlıq sahələri qeyd olunub. Söhbət zamanı 2022-ci ildə Azərbaycan ilə Avropa İttifaqı arasında imzalanmış enerji sahəsində strateji tərəfdaşlığa dair Anlaşma Memorandumunun əhəmiyyəti vurğulanıb.

Bəli, ölkəmiz Aİ ilə müxtəlif proqramlar üzrə sıx əməkdaşlıq edir - Aİ-yə daxil olan ayrı-ayrı dövlətlərlə yüksəksəviyyəli münasibətlərə malikdir. Enerji sektoru Azərbaycan - Aİ əməkdaşlığının ən mühüm istiqamətini təşkil edir. Quruda və dənizdə zəngin resurslara malik olan Azərbaycanın Avropa İttifaqı məkanının enerji təhlükəsizliyinin təmin olunmasında rolu getdikcə artır. Əgər enerji əməkdaşlığının birinci mərhələsində respublikamız "qoca qitə"yə yalnız neft və neft məhsulları tədarük edirdisə, indiki mərhələdə Avropaya enerji məhsullarının ixracına  qaz seqmenti də əlavə olunub. Azərbaycanın Avropaya qaz ixracının tarixi qısa dövrü əhatə etsə də, ölkəmizin bu sahədə mövqeyi əhəmiyyətli dərəcədə möhkəmlənib. Perspektivdə isə Azərbaycanla Avropanın enerji dialoqu yalnız nefti və qazı deyil, həm də enerji bazarının digər seqmentlərini, xüsusilə də elektrik enerjisini, hidrogen və yaşıl hidrogen enerjisini əhatə edəcək. Azərbaycanda bərpa olunan mənbələrdən alınan elektrik enerjisi Qara dənizin dibi ilə çəkiləcək kabel xətti ilə Avropaya ötürüləcək.



Bu kimi faktlar göstərir ki, Azərbaycan bərabərtərəfli əlaqələrin inkişaf etdirilməsi xətti üzrə düzgün mövqe müəyyənləşdirib. Aİ isə özünün qeyri-adekvat davranışları ilə bu əməkdaşlığa kölgə salır, bölgədə yeni münaqişə axtarışında olduğunu "bəyan edir". Bu yolverilməzdir. Azərbaycan kimi vacib bir tərəfdaşa qarşı bu kimi çirkin niyyətlər irəli sürmək, Ermənistanın işğalçı mahiyyətindən istifadə etməyə çalışmaq, bölgədə yaranacaq yeni iqtisadi-siyasi situasiyanı aradan qaldırmaq üçün cəhdlər göstərmək və nəhayət Aİ-nin özü üçün həyati əhəmiyyətə malik enerji planlarını çətin duruma salmaq nə "köhnə qitə"nin, nə də onun strukturlarının maraqlarına uyğun gələ bilməz...

### Yeni qlobal çağırışların ən fəal iştirakçısı...

Qeyd edək ki, Fon der Lyayenin telefon zəngi zamanı Azərbaycanın sədrliyi ilə Bakıda keçiriləcək COP29-un iqlim fəaliyyəti və yaşıl keçid sahəsində əməkdaşlıq üçün əlverişli imkanlar yaratdığı bildirilib. Avropa Komissiyasının Prezidenti Avropa İttifaqının humanitar minatəmizləmə fəaliyyətində Azərbaycana dəstək göstərməyə hazır olduğunu vurğulayıb. Telefon danışığında aprelin 5-də Brüsseldə keçiriləcək üçtərəfli görüş məsələsi qaldırılıb. Prezident İlham Əliyev ABŞ Dövlət katibi Antoni Blinken ilə müzakirə olunduğu kimi, bu görüşlə bağlı Azərbaycan tərəfinin mövqeyini ifadə edib və regional inklüzivliyin vacibliyini bildirib.

Bəli, Azərbaycan bu gün ən vacib qlobal çağırışları özü üçün prioritetə çevirən azsaylı ölkələrdəndir.  Təsadüfi deyil ki, Azərbaycan Prezidenti İlham Əliyev "Azərbaycan Respublikasında 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi haqqında" müvafiq sərəncam imzalayıb. Sabit və sakit dünya, silahsız və müharibəsiz həyat, sosial təminatı olan və ali təfəkkürə malik cəmiyyət prioritetləri kimi vacib şərtə çevrilən "yaşıl dünya" şüarı özündə sağlam gələcəyi tərənnüm etməkdədir. "Yaşıl dünya" şüarı Azərbaycanın ümumi inkişaf prosesinin ən ümdə ştrixlərini özündə birləşdirir - bu gün dünyanın bir sıra regionlarının enerji təminatçıları sırasında yer alan Azərbaycan yeni dövr üçün yeni prioritetlər müəyyənləşdirir və bu prioritetlərin həyata keçməsi prosesində böyük cəsarət, qətiyyət nümayiş etdirir.

Belə mühüm çağırışları özünün siyasi proriteti kimi ortaya qoyan dövlətimizə qarşı Aİ-nin və ABŞ-ın Ermənistan üzərindən oynamağa çalışdığı oyunlar isə siyasi-iqtisadi inkişafa mane olan amil kimi ortaya çıxır. Təbii ki, Ermənistana göstəriləcək hansısa hərbi və ya silah yardımı bölgədə yeni reallıq yaratmaq imkanında deyil - sadəcə olaraq, bu fakt bir daha illərdir demokratiya və sülh adı altında təbliğat aparan dövlətlərin və strukturların əsl simasını üzə çıxarır...

**P.İSMAYILOV**

# 23 aprelə gedən yol
## 17 gün qalırdı...

**Aksiyanın 116-cı günü...**

-Azərbaycanlı ekofəalların və könüllü gənclərin Şuşa ərazisindən keçən Laçın-Xankəndi yolunda təşkil etdikləri etiraz aksiyası 116 gün idi ki, davam edirdi. Aksiya iştirakçıları hər gün olduğu kimi, aprelin 6-sı səhər də Dövlət Himnini səsləndiriblər.

-Hər zaman olduğu kimi, dinc aksiyanın iştirakçıları ərazidən humanitar məqsədlər üçün istifadəyə şərait yaradıblar. Rusiya sülhməramlılarına və Beynəlxalq Qırmızı Xaç Komitəsinə (BQXK) məxsus avtomobillər maneəsiz hərəkət ediblər.

-Sülhməramlılara məxsus 4 minik və 34 təminat-təchizat avtomobilinin Laçından Xankəndi istiqamətinə sərbəst hərəkəti təmin edilib. Gün ərzində aksiya ərazisindən Rusiya sülhməramlılarına məxsus 80 avtomobil keçib.

-Aksiya iştirakçıları gecə saatlarında da fəallıq göstərib, Azərbaycan cəmiyyətinin haqlı tələblərinin yerinə yetirilməsini istəyiblər. Onlar ekoloji terrorun dayandırılması ilə bağlı Azərbaycan, ingilis və rus dillərində şüarlar səsləndiriblər.



# Uzaq ölkələr də yaxın olurlar

*Mübariz ABDULLAYEV*

Azərbaycanın ardıcıllıqla davam etdirdiyi xoş mərama əsaslanan çoxvektorlu xarici siyasət kursu ölkəmizə bütün dünyada böyük nüfuz qazandırıb. Bu gün yaxın qonşuluqda, geniş İslam coğrafiyasında, Türk birliyində, Avropa İttifaqında (Aİ) respublikamıza dərin hörmət bəslənilir. Müxtəlif məkanlarda Azərbaycanın Lideri İlham Əliyevin dövlətlər, regionlar və sivilizasiyalar arasında əməkdaşlıq əlaqələrinin möhkəmlənməsinə mühüm töhfələr verdiyi, daim qlobal həmrəylik təşəbbüslərindən çıxış etdiiyi yüksək dəyərləndirilir. O cümlədən respublikamız son illərdə uzaq Afrikanı da, necə deyərlər, fəth etməkdədir. Bu günlərdə Konqo Respublikasının Prezidenti Deni Sassu-Nqessonun Azərbaycana rəsmi səfərə gəlməsi və burada Prezident İlham Əliyevlə, digər səviyyələrdə müzakirələr aparması bunu bir daha təsdiqləyir.

## Afrikada Azərbaycana artan maraq

Sahəsi 29,2 milyon kvadratkilometr olan (adalarla birlikdə 30,3 milyon kvadratkilometr) Afrika böyüklüyünə görə Avrasiyadan sonra ikinci böyük materikdir. Ekvador onu şərti olaraq iki hissəyə bölür. "Afrika" adı latın dilində olan "afrikus", yəni soyuq bilməyən sözündən əmələ gəlib. Digər bir ehtimala görə isə "Afrika" adı materikin şimal-şərqində yaşamış "afrigi" tayfasının adından götürülüb. Dünyanın bir sıra möcüzələrinə məhz burada rast gəlmək mümkündür. Belə ki, Yer üzünün ən uzun çayı, ən uzun şirinsulu gölü, şərq yarımkürəsinin ən bol sulu çayı, quruda yer qabığının ən uzun çatı, dünyanın ən isti nöqtəsi, dünyanın ən quraq nöqtələrindən biri, ən böyük quraq təbii kompleksi, ən geniş savannası bu materikdədir. Onu Avropadan Cəbəllütariq boğazı və Aralıq dənizi, Asiyadan Aralıq dənizi, Süveyş kanalı, Qırmızı dəniz, Babülməndəb boğazı, Ədən körfəzi ayırır. Ekvator xətti və sıfırıncı meridian bu materikdən keçdiyinə görə o, 4 yarımkürədə yerləşir.

Bir sıra bu kimi fərqlilikləri və ekzotik cəhətləri ilə diqqət çəkən Afrikada son illərdə Azərbaycana maraq artıb ki, bu da səbəbsiz deyil. Burada iki mühüm amili xüsusi qeyd edə bilərik:

-Birinci amil, heç şübhəsiz ki, Azərbaycanın qısa müstəqillik tarixində keçdiyi inkişaf yolu və qazandığı uğurlarla bağlıdır. Bu gün dünyadakı təlatümlərə, yaşanan siyasi və iqtisadi böhranlara rəğmən, respublikamız sabitlik və inkişaf adası kimi fərqlənir. Qısa müstəqillik tarixində Azərbaycan iqtisadiyyatını üç dəfədən çox genişləndirməklə milli gücünü əhəmiyyətli dərəcədə artırıb. Hazırda respublikamız iqtisadi müstəqilliyini və bu əsasda siyasi müstəqilliyini tam təmin etmiş azsaylı ölkələr sırasında yer alır. Ölkəmiz milli maraqlarını qorumağa qadir olan və bunu özünün müstəqil siyasətində təzahür etdirən bir dövlətdir. Bu milli model müstəqillik yolunun başlanğıcında olan Afrika dövlətləri üçün çox cəlbedicidir.

-İkinci amil, müstəqil Azərbaycanın müstəmləkəçiliyin bütün təzahürlərinə qarşı apardığı ardıcıl mübarizə ilə Afrika xalqlarının azadlıq istəyinin üst-üstə düşməsi ilə bağlıdır. Afrikada müstəmləkəçiliyin dərin kökləri var. XIX əsrin 70-ci illərinə qədər Avropadan gələn mühacirlər Afrika qitəsinin cənub hissəsində - Kap müstəmləkəsində və qonşu Bur respubilkalarında, Əlcəzairin şimal rayonlarında ən yaxşı torpaqları tutmuşdular. O zaman Afrika ərazisinin 11 faizə qədəri kapitalist dövlətlərinə mənsub idi. Onların silahlı ekspedisiyaları sahilboyu rayonlara arxalanaraq, qitənin içərilərinə soxulur, əhalini talan edir və sağlam kişiləri tutub qul kimi öz ölkələrinə göndəririrdilər. XIX əsrin axırıncı 20 ili ərzində müstəmləkəçilər qitə ərazisinin daha 80 faizini işğal edərək, onun bölüşdürülməsini əsasən başa çatdırdılar. Müstəmləkəçilər sırasında Fransa daha acıgözlüyü ilə fərqlənir - XX əsrin əvvəlinədək Afrika ərazisinin 34 faizi bu ölkənin müstəmləkəsi altına keçmişdi. Müstəmləkəçi dövlətləri Afrikaya gətirən başlıca səbəb buradakı zəngin sərvətlər, təbii ehtiyatlar və əlbəttə ki, ucuz işçi qüvvəsi idi. Fransanın sümürmə siyasəti qitənin ayrı-ayrı ərazilərində onilliklər boyunca davam edib və özünün kədərli izlərini buraxıb.

XX əsrin əvvəlində Afrikada milli-azadlıq hərəkatı gücləndi. Getdikcə artan soyğunçuluqdan və rəhmsiz istismardan son dərəcə ümidsiz vəziyyətə düşən Afrika xalqları XX əsrin əvvəlində müstəmləkə əsarətindən azad olmağa dəfələrlə cəhd göstərmiş, silahlı mübarizəyə qalxmışlar. İkinci dünya müharibəsi ərəfəsində qitədə Efiopiya, Misir, Liberiya, CAR olmaqla 4 müstəqil ölkə var idi. Sonradan onların sayı 60-dək artıb.

Hazırda Afrikada müstəmləkəçiliyə qarşı mübarizənin yeni dalğası başlayıb. O cümlədən də Fransa buradakı müstəmləkə ölkələrindən qovulur. Azərbaycan qitənin ayrı-ayrı ölkələrində Fransanın qatı müstəmləkəçilk siyasətinin ifşa olunmasında mühüm rol oynayır və xalqların azadlıq mübarizəsinə dəstək göstərir. Azərbaycanın qəti mövqeyi belədir: Kolonializm keçmişin ən utanverici təzahürlərindən biridir və müasir dünyada ona yer olmamalıdır. Azərbaycanın müstəmləkəçiliyə qarşı mübarizəyə ardıcıl siyasi dəstək verməsi Afrika xalqları tərəfindən minnətdarlıqla qəbul olunur və onlar respublikamızla əməkdaşlıq etməyə böyük maraq göstərirlər.

## Gözəl nəticələr gözlənilən tarixi səfər

Konqo Qərbi Afrikada yerləşən dövlətdir. Bu ölkə də tarix boyunca müstəmləkəçilikdən əziyyət çəkib. Konqo nəhayət uzun mübarizədən sonra 1960-cı il 15 avqustda müstəqilliyə qovuşub. Konqo Respublikasının Prezidenti səfər çərçivəsində keçirdiyi görüşlərdə xatırladıb ki, Afrika dövlətləri, o cümlədən Konqo uzun illər ərzində müstəmləkəçilik siyasətinə məruz qalıb və azadlıqları uğrunda mübarizə aparıb. Bu gün Afrika ölkələri bəzi dövlətlərin hegemonluq, hökmranlıq etməsinə, yerli xalqların sərvətlərinin istismar olunmasına qarşıdır. O deyib ki, indiki gərgin dövrdə sülhpərvər dövlətlərin birgə fəaliyyəti, bu kimi neqativ addımlara qarşı birgə mübarizəsi çox vacibdir. Ona görə də biz istər BMT, istər Qoşulmama Hərəkatı çərçivəsində, istərsə də digər beynəlxalq təşkilatlarda təzyiqlərə, ikili standartlara qarşı birlikdə mübarizə aparacağıq.

Afrikanın ayrı-ayrı ölkələri kimi, Konqo da təbii sərvətlərlə zəngin bir diyardır. Bir çox yeraltı sərvətlərə sahib olan ölkə böyük həcmlərdə kalium, dəmir, mis, qızıl, fosfat, maqnezium, boksit, neft və digər ehtiyatlara malikdir. Həmçinin ölkədə kənd təsərrüfatının inkişafı üçün geniş imkanlar var. Lakin indiyədək burada güclü emal sənayesi qurmaq mümkün olmayıb. Neft, qəhvə, kakao, şəkər qamışı ixracın əsasını təşkil edir. Konqo bu kimi məhsulları Çin, ABŞ, Fransa, Avstraliya, Hollandiya, Hindistan, İspaniya kimi ölkələrə ixrac edir.

Müstəqil Azərbaycanla Konqo Respublikası arasında diplomatik əlaqələr 23 sentyabr 2011-ci ildə Nyu-Yorkda imzalanmış Birgə Kommünike əsasında qurulub. İndiyədək ikitərəfli əlaqələr məhdud olsa da, tərəflər siyasi dialoqu və iqtisadi əməkdaşlığı genişləndirməyə böyük maraq göstərirlər. Prezident İlham Əliyevin Konqo Respublikasının Prezidentini ölkəmizə səfərə dəvət etməsi, dəvətin məmnuniyyətlə qəbul olunması və artıq uğurla reallaşması bunu əyani şəkildə təsdiqləyir. Mətbuata verdiyi Bəyanatında səfərin önəminə diqqət çəkən Prezident İlham Əliyev vurğulayıb: "Sizin səfəriniz tarixi səfərdir. İlk dəfədir ki, Konqo Respublikasının Prezidenti Azərbaycana rəsmi səfər edir. Artıq demək mümkündür ki, səfərin çox gözəl nəticələri olacaq".

Səfər həqiqətən də kifayət qədər məhsuldar olması ilə diqqət çəkib. Həm təkbətək, həm də heyətlərin iştirakı ilə baş tutan görüşlərdə bir çox önəmli məsələlər müzakirə olunub, fikir birliyi ifadə edilib. Yaranan qənaət ondan ibarətdir ki, iki ölkə arasında siyasi əlaqələrin bundan sonra uğurla inkişaf edəcəyinə heç kimdə şübhə yoxdur. Səfər çərçivəsində imzalanmış əməkdaşlıq haqqında Bəyannamə bunu bir daha təsdiqləyir.





## Qoşulmama Hərəkatında birgə fəaliyyət

İndiyədək Azərbaycanla Konqo Respublikası arasında ikitərəfli əlaqələr arzuedilən səviyyədə olmasa da, tərəflər beynəlxalq təşkilatlar çərçivəsində faydalı əməkdaşlıq ediblər. O cümlədən Qoşulmama Hərəkatı (QH) Azərbaycanla bir sıra Afrika ölkələrini, o cümlədən də Konqo Respublikasını bir araya gətirən mühüm platformadır. Qoşulmama Hərəkatına bu ilin yanvar ayına qədər 4 il uğurla sədrlik etmiş Azərbaycan Konqonun dəstəyini hər zaman hiss edib. Ölkəmizin təşəbbüsləri Konqo Respublikası tərəfindən hər zaman dəstəklənib. Konqonun və digər dost ölkələrin dəstəyinin nəticəsidir ki, Azərbaycanın QH-na sədrliyi kifayət qədər uğurlu keçib. Belə ki, ötən dörd il ərzində Qoşulmama Hərəkatının institusional inkişafı təmin edilib. Qurumun Parlament Şəbəkəsi, Gənclər və Qadınlar platformaları məhz Azərbaycanın sədrliyi dönəmində formalaşıb. Bu gün Qoşulmama Hərəkatı əvvəlki dövrlərə nisbətən daha güclü təşkilatdır. Bu təşkilatın dünya miqyasında və dünyada gedən proseslərdə oynadığı rolunun artırılması ümumi maraqlara xidmət edir. Qeyd edək ki, Qoşulmama Hərəkatı BMT-dən sonra ikinci böyük təsisatdır, tərkibində 121 üzvü birləşdirir. Bakıda baş tutan görüşlərdə beynəlxalq təsisatlarda gələcək əməkdaşlıqla bağlı geniş fikir mübadiləsi aparılıb və yeni təkliflər səsləndirilib. "Biz bundan sonra da beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı dəstək əsasında qarşılıqlı fəaliyyətimizi davam etdirəcəyik, xüsusilə BMT-də və Qoşulmama Hərəkatı çərçivəsində", - deyə Prezident İlham Əliyev vurğulayıb.

Həmçinin Konqo Respublikasının Prezidenti də ölkəsinin Azərbaycanla Qoşulmama Hərəkatı və digər beynəlxalq təşkilatlarda sıx əməkdaşlıq etməsindən məmnunluğunu bildirib. O, Azərbaycanın dövlət başçısının müxtəlif qlobal məsələlərdə liderlik nümayiş etdirməsinə xüsusi diqqət çəkərək vurğulayıb: "Mən əlavə etmək istərdim ki, biz xüsusilə Qoşulmama Hərəkatındakı sədrliyi zamanı Prezidentin liderliyini alqışladıq. Həmçinin biz Azərbaycanın bu yaxınlarda digər ağır mübarizə sahəsində - iqlim dəyişiklikləri sahəsində oynayacağı rolu alqışlayırıq, çünki Azərbaycan COP29-a ev sahibliyi edəcək".

## Perspektiv əməkdaşlıq istiqamətləri

Bakıda keçirdiyi görüşlərdə və mətbuata verdiyi Bəyanatında Prezident Deni Sassu-Nqesson ölkəsinin geniş iqtisadi potensialı barədə ətraflı məlumat verib. Qeyd olunduğu kimi, Konqo bir sıra təbii sərvətlərlə zəngindir. Ölkənin münbit torpaqlarının cəmi 3 faizi kənd təsərrüfatı üçün istifadə olunur. Bol su ehtiyatları, ilin bütün fəsillərində optimal hava şəraiti burada aqrar sektorun müxtəlif sahələrinin inkişafı imkanlarını artırır. Həmçinin Konqoda neft sərvətləri ilə yanaşı, böyük bərpaolunan enerji potensialı var. Çatışmayan yeganə cəhət təcrübə və investisiyalardır. Azərbaycan isə bütün bunları qarşılamağa hazır və qadir ölkədir. Respublikamız geniş maliyyə imkanlarına və müxtəlif sahələrdə güclü kadr potensialına malikdir. Öz imkanlarından bəhrələnən Azərbaycan son illərdə dünyanın ayrı-ayrı ölkələrində fəal investisiya siyasəti həyata keçirir və uğurlar qazanır. Bundan sonra oxşar fəaliyyətləri Konqoda da həyata keçirmək mümkün olacaq. Eyni zamanda, neft kəşfiyyatı və hasilatı sahəsində, aqrar sektorda qazandığımız təcrübə Konqo Respublikası üçün də faydalı ola bilər. Liderlər keçirilən görüşlərdə və mətbuata verdikləri bəyanatlarda gələcək əməkdaşlıq istiqamətlərindən geniş bəhs ediblər. "Biz bu gün təbii ki, iqtisadi sahədə də əməkdaşlıq haqqında geniş fikir mübadiləsi aparmışıq. Nümayəndə heyətlərinin üzvlərinə konkret tapşırıqlar verilmişdir. Azərbaycan Konqoda bir çox investisiya layihələrində iştirak etmək fikrindədir, ilk növbədə, kənd təsərrüfatı sahəsində. Bərpaolunan enerji sahəsində, energetika sahəsində, mədənçilik və digər sahələrdə əməkdaşlıq üçün çox gözəl perspektivlər var. Bu gün müzakirə aparıldı, müvafiq göstərişlər verildi və əminəm ki, gələcək aylar ərzində bizim nümayəndələrimiz bir-biri ilə sıx təmasda olacaqlar", - deyə Prezident İlham Əiyev vurğulayıb.

Qeyd edək ki, səfər çərçivəsində bir sıra önəmli sənədlər imzalanıb. Dövlət başçılarının imzaladıqları "Azərbaycan Respublikası və Konqo Respublikası arasında əməkdaşlıq haqqında Bəyannamə" və digər sənədlər iki ölkə arasında geniş əməkdaşlıq perspektivləri açır.

---

## Milli Məclisin plenar iclasında...

# Parlamentdə Brüssel görüşü ilə bağlı məsələ qaldırılıb



Aprelin 5-də Milli Məclisin yaz sessiyası üzrə növbəti plenar iclası keçirilib. Sahibə Qafarovanın sədrliyi ilə keçirilən toplantının gündəliyinə 21 məsələ daxil edilib.

Əvvəlcə iclasda Brüsseldə Ermənistanın baş naziri Nikol Paşinyan, ABŞ-ın dövlət katibi Antoni Blinken və Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayen arasında üçtərəfli görüşlə bağlı məsələ qaldırılıb. Milli Məclis sədrinin müavini Fəzail İbrahimli Azərbaycanın öz ərazilərini işğaldan azad etdiyini söyləyib və Bakının indi sülh istədiyini bildirib. O deyib ki, belə olan halda Avropanın regionda müharibəni yenidən alovlandırmaq cəhdi qəbuledilməzdir: "Bu cəhdlər nəylə əlaqədardır?! Cavab çox bəsitdir. Rusiya üçün ikinci cəbhə açmaq. Ukraynada baş verənlər, Rusiyaya tətbiq edilən sanksiyalar bir nəticə vermədi. İndi isə Ermənistan üzərindən həmin oyun oynanılır. Ermənistan Rusiya tərəfindən yaradılan bir dövlətdir. Onlar burada ikinci cəbhəni açıb Ermənistanı Moskvanın əlindən almaq istəyidir. Lakin bütün bunlara baxmayaraq hesab edirəm ki, 5 aprel görüşünün heç bir nəticəsi olmayacaq", - Milli Məclis sədrinin müavini bildirib.

Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov deyib ki, bu gün Brüsseldə keçirilən görüşlə bağlı Azərbaycanın mövqeyi məlumdur: "Burada məni narahat edən digər məsələ isə İranın susqunluğudur. 44 günlük müharibə zamanı İran hər gün bəyanat verirdi ki, Zəngəzura girmək olmaz. Amma bu gün görürük ki, İran bu məsələyə heç bir münasibət bildirmir. Bu gün həmin torpaqlarda NATO-nun, digər ölkənin kəşfiyyatçıları, eyni zamanda terrorçular var. İran bilməlidir ki, o torpaqlara yığılan silahlar Azərbaycan üçün yox, İran üçündür. Digər tərəfdən İran parlamentində bir deputat deyib ki, Azərbaycandakı İsrail səfirliyinə hücum edək. Elə gözünüz Azərbaycanı görür. Əgər gücünüz çatırsa, Amerikada, Rusiyada və digər ölkələrdəki səfirlikləri hədələyin", - o söyləyib.

Deputat Elman Nəsirov qeyd edib ki, ABŞ-ın dövlət katibi Antoni Blinken və Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayenin Azərbaycan Prezidenti İlham Əliyevə zəng edərək bu gün (dünən-red.) Brüsseldə keçiriləcək üçtərəfli görüş barədə məlumat vermələri yüksək qiymətləndirilməlidir: "Bu gün Cənubi Qafqazda sülh heç vaxt olmadığı qədər yaxındır. Bu baxımdan sülhə qarşı atılacaq bütün addımların məsuliyyəti ABŞ-ın üzərinə düşür. Bu, Prezident İlham Əliyevin dünyadakı nüfuzundan xəbər verir. ABŞ və Avropa İttifaqı rəsmiləri bildirib ki, bu görüşdə sadəcə iqtisadi məsələlər müzakirə ediləcək. Lakin gedişat onu göstərir ki, burada Azərbaycanın rəyi nəzərə alınmadan bəzi məsələlərin müzakirəsi gündəmə gələ bilər".

Sonra Azərbaycan Respublikası Ali Məhkəməsi hakimlərinin təyin edilməsi haqqında, M.K.Həsənovun Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimi təyin edilməsi haqqında, Bakı Apellyasiya Məhkəməsinin hakimlərinin təyin və vəzifədən azad edilməsi haqqında, Gəncə Apellyasiya Məhkəməsinin hakimlərinin təyin və vəzifədən azad edilməsi haqqında, Sumqayıt Apellyasiya Məhkəməsinin hakimlərinin təyin və vəzifədən azad edilməsi haqqında, Şəki Apellyasiya Məhkəməsinin hakimlərinin təyin edilməsi haqqında, Şirvan Apellyasiya Məhkəməsinin hakimlərinin təyin və vəzifədən azad edilməsi haqqında sənədlər bir oxunuşda qəbul edilib.

Daha sonra "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" və "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Konstitusiya qanununun layihəsi (üçüncü oxunuş), "Media haqqında" Azərbaycan Respublikasının 2021-ci il 30 dekabr tarixli 471-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş), "Bələdiyyələrin birgə fəaliyyəti, birləşməsi, ayrılması və ləğv edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş), "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş), "Dövlət əmlakının özəlləşdirilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş) səsverməyə çıxarılaraq qəbul edilib.

Ardınca Azərbaycan Respublikasının 2001-ci il 12 iyun tarixli 141-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş), "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş), Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş), Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Sosial sığorta haqqında", "Gömrük tarifi haqqında" və "Reklam haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş), Azərbaycan Respublikasının Mülki Məcəlləsində və "İpoteka haqqında", Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş), "Media haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş) səsvermə yolu ilə təsdiqlənib.

Sonra "Azərbaycan Respublikası Silahlı Qüvvələri Daxili xidmət nizamnaməsinin təsdiq edilməsi haqqında", "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında", "Cinayət törətmiş şəxslərin verilməsi (ekstradisiya) haqqında" və "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş), "Sosial sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda və Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş), "Dərman vasitələri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 979-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş) səsvermə əsasında qəbul edilib.

Beləliklə, Milli Məclisin yaz sessiyası üzrə keçirilən növbəti plenar iclası başa çatıb.

*Günel ABBAS*

# "Zərərli vərdişlərə yox de, sağlam həyat tərzini seç!"

Aprelin 5-də Yeni Azərbaycan Partiyası (YAP) Mərkəzi Aparatının, "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin və Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupunun birgə Tədbirlər Planına uyğun olaraq Azərbaycan Texniki Universitetində "Zərərli vərdişlərə yox de, sağlam həyat tərzini seç!" mövzusunda interaktiv təlim keçirilib.

Tələbə-gənclərin iştirak etdiyi tədbirdə əvvəlcə Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbiri giriş sözü ilə açan YAP Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev narkomaniya ilə mübarizənin sağlam cəmiyyətin formalaşması üçün zəruri şərtlərdən olduğunu bildirib. Onun sözlərinə görə, narkomaniya insan həyatında sağalmaz fəsadlar yaradır. Bu səbəbdən Azərbaycanda narkomaniyaya qarşı sistemli mübarizə aparılır.

Çıxış edən YAP Mərkəzi Aparatının Gender siyasəti və gənclərlə iş şöbəsinin müdiri Zəkiyyə Musayeva qeyd edib ki ki, bu tədbir dövlət başçısının təsdiq etdiyi "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı"nın icrasına uyğun olaraq keçirilir. Onun sözlərinə görə, bu problemin həllinə xidmət edən mühüm addımlardan biri kimi yeniyetmə və gənclər arasında maarifləndirmə işlərinin genişləndirilməsidir: "Narkotik maddələrin gənclər və yeniyetmələr arasında daha çox yayılma təhlükəsini nəzərə alaraq ölkəmizdə müvafiq proqramların qəbul edilməsi sağlam gələcəyimiz üçün önəmlidir".





Azərbaycan Texniki Universitetinin rektoru Vilayət Vəliyev isə çıxışında bildirib ki, müasir dövrdə gənclərin zərərli vərdişlərdən qorunması olduqca vacibdir. Gənclər daha çox bilik qazanmağa, sağlam həyat tərzinə üstünlük verməlidirlər. Bu baxımdan, ali məktəblərdə fəal iş aparılması diqqət mərkəzindədir. Onun sözlərinə görə, gənclərin bu kimi vərdişlərdən uzaq olması üçün maarifləndirmə tədbirləri davamlı olmalıdır.

Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupunun Milli İnformasiya sektorunun müdiri Raqif Allahverdiyev də maarifləndirmə işlərinin narkomaniyaya qarşı mübarizədə ən güclü vasitə olduğunu deyib. "Narkomaniya insan həyatını məhv edir. Narkotik maddələrdən asılılıq insanın ailəyə, cəmiyyətə bağlılığını azaldır və nəticədə onu cəmiyyət üçün faydasız fərdə çevirir. Belə insanlar öz yaxınlarını da narkotik maddələrin istifadəçisinə çevirirlər. Buna görə də gənclər narkomaniyanın nə qədər zərərli və təhlükəli olduğunu bilməlidirlər", - deyə R.Allahverdiyev vurğulayıb.

Çıxış edən Səhiyyə Nazirliyi Sumqayıt şəhər Narkoloji Dispanserinin şöbə müdiri, həkim-narkoloq Vüsal Cabbarov narkotik maddələrin insan sağlamlığına vurduğu zərərdən, törətdiyi fəsadlardan ətraflı bəhs edib. O, gəncləri bu bəladan uzaq olmağa çağırıb.

Tədbir diskussiya şəraitində davam edib, gənclərin sualları cavablandırılıb.

Sonda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.

# Rusiya və Türkiyədən açıq etiraz...

## Bölgəyə yaranan təhdid iki böyük dövləti hərəkətə keçirdi

Azərbaycanın Cənubi Qafqazın gələcək inkişafı ilə bağlı apardığı siyasi xətt birmənalı şəkildə əməkdaşlığa, sülhə və sabitliyə əsaslanır. Bu amillər kompleks şəkildə bölgənin yeni iqtisadi inkişaf mərhələsinin formalaşdırır. Yaradılan yeni siyasi-iqtisadi konfiqurasiyası isə özündə bölgə dövlətlərinin ümumi əməkdaşlıq maraqlarını cəmləşdirir: Mərkəzi Asiya-Cənubi Qafqaz-Kiçik Asiya üzərindən keçən tranzit xəttlərinin, iqtisadi imkanların diversifikasiyası yaxın perspektiv üçün mühüm imkanlar yaradır. Təəssüflər olsun ki, bəzi xarici qüvvələrin, konkret olaraq ABŞ və Aİ-nin qeyri-adekvat "həvəsləndirmələri" ilə Ermənistan bu perspektiv inkişaf mərhələsini yubadır.

Bu amil bölgə dövlətləri tərəfindən də böyük etirazla qarşılanır. Çünki Aİ və ABŞ-ın Ermənistan üzərindən Cənubi Qafqaza müdaxilə cəhdi siyasi-iqtisadi balansa zərər yetirməklə yanaşı, yeni proseslər başlada bilər. Bu isə yolverilməzdir. Bu mənada, dövlətlərin etdikləri etirazlar məntiqli və gözlənilən haldır...

### Rusiyadan "incə mesaj": burada Ermənistanın özündən də çox erməni yaşayır

Regionun ən mühüm dövlətlərindən sayılan Rusiya son zamanlarda Ermənistanın apardığı siyasəti görür - rəsmi Krem bu və ya digər şəkildə İrəvana atdığı addımları korrektə etməklə bağlı sətiraltı, hətta açıq mesajlar ötürür. Məsələn martın axırlarında Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov "Arqumenti i faktı" nəşrinə müsahibəsində bildirmişdi ki, Rusiya Ermənistanla münasibətlərdə kifayət qədər çətin dövr yaşayır". "Burada Ermənistanın özündən də çox erməni yaşayır. Yeri gəlmişkən, Rusiya Federasiyasının vətəndaşları olan ermənilərin iqtisadi fəallığı hələ də Ermənistanın ümumi büdcəsinin çox böyük faizini təşkil edir. Adamlar ora pul köçürür, söhbət ildə bir neçə milyard dollardan gedir", - deyə Peskov İrəvana maraqlı mesaj vermişdi. Rusiya dövlətinin rəsmisi ABŞ və Aİ-nin müdaxiləsinə diqqət çəkərək vurğulamışdı ki, Qafqaz regionu təəssüf ki, müxtəlif regiondankənar qüvvələrin diqqətini cəlb edir. "Biz əminik ki, bu qüvvələrin iştirakı çox məhdud olmalıdır, çünki həmin qüvvələr orada sabitlik və rifah gətirmək iqtidarında deyil. Ona görə də ümid edirik ki, əlaqələrimizin inkişafını davam etdirmək üçün İrəvanda siyasi iradə qalib gələcək və biz bu çətin dövrdən uğurla keçəcəyik" - Peskov əlavə etmişdi.

İndiki halda isə Rusiyanın mövqeyi daha da konkretləşib - xüsusilə də, Brüssel görüşündə bəzi xoşagəlməz "perspektivlərin" yaranması ehtimalı Rusiya üçün böyük əhəmiyyət kəsb edir. Mövzu ilə bağlı açıqlamasında Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov, görüşü yaxından izləyəcəklərini və 5 apreldə atılacaq imzaların region üçün müsbət nəticə verməyəcəyini qeyd edib: "Biz bu görüşü çox böyük bir diqqətlə izləyəcəyik. Əvvəlki kimi, hesab edirik ki, digər dövlətlərin regional işlərdə iştirakının artması müsbət nəticə verməyəcək".

Qeyd olunduğu kimi, Ermənistanın tutduğu yol təhlükəli və region üçün müsbət vədlər ortaya qoymayan perspektivə hesablanmış yoldur. Halbuki Azərbaycanla münasibətləri normallaşdırmaqla, sülh imzalamaqla Ermənistan bütövlükdə regional inkişafın mühüm halqası qismində çıxış edəcək. Bu, Ermənistan üçün yeni imkanlar, yeni iqtisadi münasibətlər deməkdir - eyni zamanda, bölgənin aparıcı siyasi aktoru olan Türkiyə ilə də münasibətlərin normallaşması üçün əsas yaradacaq. Ermənistan bu reallığı bilir - Azərbaycanla sülhün imzalanması İrəvanın Türkiyə ilə də münasibətlərinin normallaşması deməkdir. Bu isə, İrəvana həm Şərq, həm də Qərb istiqamətində mühüm iqtisadi imkanlar açır. Çünki bölgənin ümumi inkişaf mənzərəsində xüsusi çəkilər əlavə etmiş Azərbaycan-Türkiyə strateji tərəfdaşlığının fonunda reallaşdırılan əməkdaşlıq platformaları regional miqyaslı strateji təmasların sıxlaşdırılmasına və bölgənin siyasi, iqtisadi və hərbi təhlükəsizliyinin təmin olunmasına xidmət göstərir. Bakı-Ankara tərəfdaşlığı regional miqyaslı, qlobal xarakterli müxtəlif enerji layihələrinin reallaşdırılmasını mümkün edib ki, bu da bölgənin iqtisadi inkişafına təsir göstərir, həmçinin iqtisadi təhlükəsizliyin təmin olunması işinə özünəməxsus fundamental töhfələr verib.



### Ankaranın mövqeyi: bu təşəbbüs Cənubi Qafqazın geosiyasi münaqişələr meydanına çevrilməsinə yol açacaq

Bunun üçün isə Ermənistan özünün hazırkı qeyri-konstruktiv mövqeyindən əl çəkməlidir. Üçtərəfli görüş bu əməkdaşlığın inkişaf imkanlarının genişlənməsinə mane olan predmet kimi çıxış edir. Türkiyənin bu görüşlə bağlı mövqeyi isə Azərbaycanla adekvatdır - rəsmi Ankara bu görüşü gələcək perspektiv üçün böyük zərbə sayır. Belə ki, Türkiyə Xarici İşlər Nazirliyinin aprelin 5-də keçirilməsi planlaşdırılan bəyanatında bildirilir ki, üçtərəfli görüş regiondakı mürəkkəb problemlərin həlli üçün əsas götürülməli olan neytrallıq yanaşmasına zərbə vuracaq. Bəyanatda vurğulanır ki, Azərbaycanın iştirakını nəzərdə tutmayan bu təşəbbüs Cənubi Qafqazda sülhə xidmət etmək yerinə, bölgənin geosiyasi münaqişələr meydanına çevrilməsinə yol açacaq.



"Üçüncü ölkələri proses kontekstində atacaqları addımlarda regionun xüsusiyyətlərini nəzərə almağa və tərəflərə eyni məsafədən yanaşmağa çağırırıq. Biz daha təkrar edirik. İnanırıq ki, Cənubi Qafqaz regionda bərqərar olacaq daimi sülh və sabitlik əsasında yüksələcək və layiq olduğu regional rifaha nail olacaq. Türkiyə həmişə olduğu kimi bu məsələdə üzərinə düşəni etməyə davam edəcək və Azərbaycanla Ermənistan arasında daimi sülhün əldə olunması üçün tarixi fürsətdən istifadəni təşviq etməyə davam edəcək", - deyə bəyanatda vurğulanıb.

Həmçinin əlavə olunub ki, Azərbaycanın İkinci Qarabağ müharibəsində zəfəri ilə işğal olunmuş torpaqların azad edilməsi və 19-20 sentyabr 2023-cü il tarixlərində Qarabağda həyata keçirilən antiterror əməliyyatı ilə bütün ölkə üzərində suverenliyinin bərpası nəticəsində regionda daimi sülh və sabitliyin bərqərar olması üçün tarixi fürsət yaranıb:

"Bu tarixi fürsətin uğurla nəticələnməsinə çox yaxın olduğumuz bir vaxtda üçüncü tərəflərin, xüsusən də qeyri-regional aktorların prosesə ədalətli və qərəzsiz yanaşması, prosesə zərər vurmamaq üçün ehtiyatlı olması daha da vacib olub".

Göründüyü kimi, artıq bütövlükdə bölgə dövlətləri, hətta ABŞ-ın NATO-dakı ən aparıcı tərəfdaşı olan rəsmi Ankara bu görüşün yaradacağı mənfi tendensiyaların anonsunu səsləndirməkdədir. Bu kimi görüşlər, eyni zamanda yaranma ehtimalı böyük olan "hərbi pakt" bütövlükdə bölgəni təhdid qarşısında qoyur. Bu isə yolverilməzdir. Ermənistan anlamalıdır ki, onla korporativ maraqlar qarşılığında verilən "dəstək" regiona böyük iqtisadi ziyan verəcək - ən əsası, Ermənistanın özünün yaranma ehtimalı böyük olan yeni inkişaf mərhələsini istisna edəcək. Eyni zamanda, bu addım İrəvanın Bakı ilə yanaşı Ankara ilə münasibətləri normallaşdırma prosesinə mənfi təsir göstərəcək. Çünki Türkiyə hər zaman bəyan edib ki, Türkiyə ilə Ermənistan arasında münasibətlərin normallaşması prosesi rəsmi Bakı ilə aparılan prosesle əlaqəli şəkildədir. Bu isə, onu deməyə əsas verir ki, Ermənistan yenə də bölgədə dalan dövləti statusundan qurtula bilməyəcək...

**P. SADAYOĞLU**

# İtaliyanın mövqeyi Fransa üçün nümunə olmalıdır

## Parisin Cənubi Qafqaz regionu ilə bağlı təxribatçı siyasəti bumeranq effekti verməkdədir



Fransanın hazırkı mövqeyi Cənubi Qafqazda sülhə və təhlükəsizliyə böyük təhdiddir. Ermənilərin maraqları naminə bu ölkə beynəlxalq hüquqa hörmətsizlik edir, bəşəri dəyərləri ayaqlar altına atır. Bu, o deməkdir ki, Fransa hökuməti və parlamenti, bu ölkənin ayrı-ayrı siyasi dairələri uzun illərdir açıq irqçi, azərbaycanofob, türkofob və islamofob fəaliyyət nümayiş etdirirlər. Bu yanaşma artıq Fransanın dövlət siyasəti səviyyəsinə çevrilib.

Azərbaycan özünün ərazi bütövlüyünü və suverenliyini bərpa etməsindən sonra Fransanın ölkəmizə qarşı qərəzli mövqeyi, böhtan kampaniyası pik səviyyəyə çatıb. Rəsmi Paris Ermənistanın maraqlarına xidmət edərək bütün sərhədləri aşmaqdadır. Bu ölkənin prezidentindən tutmuş, hökumət rəsmiləri, nazirlər, parlamentarilər, politoloqlarına qədər ölkəmiz haqqında yalan, qeyri-obyektiv fikirlər səsləndirməkdən usanmırlar. Aprelin 2-də Fransanın Avropa və xarici işlər naziri Stefan Sejurnenin Parisdə ABŞ Dövlət katibi ilə birgə mətbuat konfransı zamanı Azərbaycana qarşı səsləndirdiyi əsassız iddialar bunu bir daha təsdiqləyir. Belə ki, fransız nazir görüşdə "Biz bu gün Azərbaycan təhdidlərinə məruz qalan Ermənistanın ərazi bütövlüyündən danışdıq və Bakının ritorikasının getdikcə ifrata doğru getdiyini nəzərə alsaq, bundan nə qədər narahat olduğumuzu bildirmək istəyirəm" deyib. O, erməni sevgisini davam etdirərək bunları deyib: "Biz Ermənistana qarşı getdikcə daha çox saxta ittihamlar görürük. Ermənistan yeqin ki, regionda münaqişənin qarşısını almaq istəyən və buna cəhd edən yeganə ölkədir. Əgər daha yaxından baxsaq, Rusiya və Ukrayna ilə baş verənlərlə çoxlu ümumi oxşarlıqlar tapacağıq və düşünürəm ki, Bakıda keçiriləcək COP29-dan altı ay əvvəl buna diqqət yetirməliyik".

Vəziyyət o həddə çatıb ki, artıq Avropanın özündə də Fransanın Cənubi Qafqaz siyasəti açıq şəkildə tənqid olunur. Bu tənqidlər hansısa qeyri-hökumət təşkilatı deyil, məhz dövlət rəsmiləri səviyyəsində səslənir. Belə ki, bugünlərdə İtaliyanın xarici işlər və beynəlxalq əməkdaşlıq nazirinin müavini Edmondo Çirielli Qərbin, xüsusilə Fransanın Cənubi Qafqaza dair tutduğu birtərəfli mövqeyə etiraz edib. O bildirib ki, Azərbaycanla Ermənistan arasında sülh prosesinə üçüncü tərəflərin müdaxiləsi əlavə gərginlik yarada bilər. Açıqlamada Fransa tərəfinə sülh səylərinə manecilik törədən addımlardan çəkinməyə çağırış edilib. İtaliya diplomatı hesab edir ki, Fransa xarici işlər nazirinin verdiyi açıqlamalar regionda vəziyyəti sakitləşdirməyə kömək etmir. İtaliyanın nazir müavini həmçinin qeyd edib ki, Azərbaycan tərəfi BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) ev sahibi qismində məsuliyyətli davranış sərgiləyir və bununla əlaqədar, Fransa xarici işlər nazirinin ABŞ dövlət katibi ilə birgə mətbuat konfransı zamanı verdiyi bəyanatlar prosesə mənfi təsir göstərir.

Məsələ ilə bağlı Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə bildirib ki, İtaliyanın xarici işlər və beynəlxalq əməkdaşlıq nazirinin müavininin verdiyi bu açıqlama ilk növbədə beynəlxalq hüququn təməl prinsip və normalarına hörmətin bir, eyni zamanda, ölkələrin daxili işlərinə müdaxilənin və Azərbaycanla Ermənistan arasında normallaşma və sülh prosesi kimi həssas məsələ ilə bağlı məsuliyyətsiz yanaşmadan çəkinilməsinin nə dərəcədə vacib olduğunu nümayiş etdirir. Onun sözlərinə görə, İtaliya tərəfinin həm münaqişə, həm də post-münaqişə dövründə bölgə üzrə sərgilədiyi siyasət və yanaşma daim balanslı olub.

XİN-in rəsmi nümayəndəsi diqqətə çatdırıb ki, bu ölkə tərəfindən beynəlxalq hüququn pozuntularını gözardına alan siyasətdən qaçınılması bir daha İtaliya tərəfinin məsələdən daim agah olduğunu göstərib və Fransa kimi ölkələrin yürütdüyü destruktiv siyasətin nə dərəcədə əsassız və nəticəsiz olduğunu sübut edib. "Hesab edirik ki, İtaliya tərəfindən yürüdülən bu siyasət başda Fransa olmaqla, bəzi Avropa ölkələrinə nümunə olmalıdır", -deyə A.Hacızadə vurğulayıb.

Göründüyü kimi, Fransanın yanlış siyasəti Avropa dövlətlərinin də haqlı etirazlarına səbəb olur. Parisin Cənubi Qafqazla bağlı qərəzli, təxribatçı mövqeyinə Avropada etirazların bundan sonra da artacağı istisna deyil. Bütün bunlar onu deməyə əsas verir ki, Fransanın bu siyasəti bumeranq effekti verməkdədir.

**Nardar BAYRAMLI**



# Yeni peykimiz ölkəmizə hansı faydalar verəcək?

Azərbaycan növbəti optik müşahidə peykini 2026-cı ildə orbitə buraxmağa hazırlaşır. Kosmik Agentliyin (“Azərkosmos”) İdarə Heyətinin sədri Samaddin Əsədov bildirib ki, ötən il Bakıda keçirilən 74-cü Beynəlxalq Astronavtika Konqresi çərçivəsində “Azərkosmos” və “Israel Aerospace Industries” (IAI) şirkəti arasında Azərbaycanın yeni müşahidə peyklərinin hazırlanması üzrə əməkdaşlıq müqaviləsi imzalanıb və razılaşmağa əsasən, “Azersky-2” kosmik peykinin dünya peyk ailəsinə qoşulması nəzərdə tutulur.

Dünyanın ən güclü texnologiya şirkətlərindən olan “Israel Aerospace Industries” şirkəti yeni peykin hazırlanması üzrə işlərə ötən ilin sonlarından başlayıb və peykin layihələndirilməsi, yığılması, inteqrasiyası və sınağı azərbaycanlı mütəxəssislərin iştirakı ilə IAI tərəfindən aparılmaqdadır. “IAI” proqram çərçivəsində “Azersky-2” üzrə iki peyk hazırlanması planlaşdırılır. İsraillə birgə 2026-cı ildə yeni peykin orbitə çıxarılmasından sonra 2028-ci illdə daha bir “Azersky-2” qurğusu fəzaya buraxılacaq.

**Yeni peykin buraxlışının Azərbaycan üçün hansı əhəmiyyəti olacaq?**

İlk növbədə qeyd edək ki, bu layihənin icrası Azərbaycan və İsrail arasında sənaye texnologiyaları sahəsində əməkdaşlığın dərinləşməsində yeni töhfəverici rol oynayacaq. “İsrael Aerospace Industries” şirkəti dünyada unikal sənaye və kosmik mallar tədarükçüsü olmaqla Azərbaycanda da yeni innovasiyaların təşviqində və yeni nəsil texnologiyaların hazırlanmasında dəstəyini əsirgəməyəcək. Ölkələrimiz arasında kosmik sahədə əməkdaşlığın inkişafına töhfə verməklə yanaşı, bu layihə kibertəhlükəsizlik platformalarında da birgə həllərə zəmin yaradacaq. Ötən il İsrailin “Technion” İnstitutu ilə birgə Azərbaycan Kibertəhlükəsizlik Mərkəzinin təsis edilməsindən sonra Azərbaycanda kibertəhlükəsizlik sahəsində yeni platformanın qurulması və kibertəhlükəsizlik məhsullarının araşdırılması və məhsul hazırlığı kimi starteji həllərin müəyyən edilməsi hazırkı kosmik proqramların əlaqələndirilməsində də mühüm rol oynayacaq.

İkincisi, “Azersky-2” proqramı ölkəmizdə Yer səthinin müşahidəsi sektorunda davamlılığı təmin edəcək, hazırda azad edilmiş ərazilərdə aparılan tədqiqatların sürətlənməsinə töhfə verəcək. Qeyd edək ki, Azərbaycan qlobal fəzada “Azerspace-1”, “Azerspace-2” və “Azersky” peykləri üzrə təmsil olunmaqdadır. Yeni peyk daha təkmilləşdirilmiş və innovativ kosmik infrastruktura malikdir. Fəzaya buraxılacaq peykin çəkisi 300 kiloqram nəzərdə tutulub və 5 il fəaliyyətdə olacağı təxmin edilir. Bu peyk ilə 500 km hündürlükdən uzunluğu 400 km-ə, eni isə 5 km-ə qədər fotolar çəkmək mümkündür. Peyk, ayırdetməsi 50 sm-dən daha yaxşı təsvirlər əldə etmək üçün elektro-optikal kamera ilə təchiz ediləcək . Peykin məlumat yaddaşı 1 TB müəyyən edilib. Qurğu saniyədə 0.5 GB ölçüdə material ötürə biləcək. Peyk “OPTSAT 500” platforması üzərində istehsal ediləcək. Beləliklə, yeni peyk qurğusu Azərbaycanın ən son nəsil peyk parkının yaranmasına və çoxşaxəli və daha dəqiq müşahidələr aparmağa imkan verəcək.

Üçüncüsü, Azərbaycanın beynəlxalq regionun kosmik mərkəzinə çevrilməsi yönündə səylərini daha da möhkəmləndirəcək, eyni zamanda, ölkəmizin informasiya təhlükəsizliyində və kosmos sahəsində digər dövlətlərdən asılılığını tam aradan qaldıracaqdır. Azərbaycanın həm Cənubi Qafqazda, həm də Xəzər regionunda texnologiya hubuna çevrilməsi prosesi daha da sürətlənəcək və dünyada öncül mövqeyini möhkəmləndirəcək.

Dördüncüsü, Azərbaycan peyk məhsulları və kosmik sənaye ixtacatçısı kimi dünyada mövqeyini artıracaqdır. Hazırda Avropa, Afrika, Yaxın Şərq, Mərkəzi Asiya regionlarının 50-dək ölkəsindən 200-dən artıq müştəriyə xidmət göstərərək qlobal və regional peyk xidmətləri ixrac edən “Azərkosmos”un ixrac coğrafiyasının genişlənərək 60-dan çox ölkəni əhatə etməsi mümkün olacaq. Eyni zamanda, qeyri-neft ixracının əsas bölmələrindən birinə çevrilən İT və rəqəmsal texnologiyaların ixracından əldə edilən valyutanın həcmini artıracaq. Ötən il peyk əmtəəsindən 18 milyon dollar gəlir əldə edən Azərbaycanın yaxın onillikdə bu sahədən ən azı 50-100 milyon dəyərində valyuta qazanması istisna edilmir.

Sözsüz ki, bunlar Azərbaycan iqtisadiyyatının güclənməsinə, postneft dövründə milli gəlirlərin strukturunda kosmik sənaye dividentlərinin artmasına səbəb olacaq.

*Elbrus*

# Azad ərazilər “yaşıl enerji” ixracında əsas güc mənbəyi olacaq

Azərbaycanın “yaşıl enerji” strategiyasında əsas potensial güc mənbəyi kimi azad edilmiş ərazilərin resursları xüsusi yer tutur. Ortamüddətli inkişaf konsepsiyasında bu ərazilər Yaşıl Enerji Zonası elan edilib və Yaponiyanın TEPSCO şirkəti müxtəlif ssenarilər tətbiq edilməklə ərazilərin enerji tələbatı modellərini hazırlayıb. Həmin strateji yanaşmaya əsasən, Yaşıl Enerji Zonasında enerji istehsalı üçün bir neçə mənbə müəyyən edilib. Bunlar bərpa olunan enerji mənbələrindən elektrik enerjisi istehsalı, elektrik nəqliyyat vasitələrindən istifadə, günəş panellərinin qurulması, həmçinin küçələrin və yolların işıqlandırılmasında günəş enerjisi əsaslı LED lampalardan istifadə, istilik, soyutma və isti su təchizatında bərpa olunan enerji texnologiyalarının tətbiqi, ağıllı enerji idarəetmə kimi modellərdir.



Azərbaycan 2050-ci ilə qədər istixana qazı emissiyalarının 40 faizə qədər azaldılmasını və işğaldan azad edilmiş ərazilərdə “xalis sıfır emissiya” zonası yaradılması niyyəti bəyan edib. Həmin məqsəd və hədəflərə uyğun olaraq bu bölgədə yaxın 20 ildə alternativ enerji blokalarının tam hərəkətə gətirilməsi nəzərdə tutulur.

**Azad edilmiş ərazilərin potensialı elan edilmiş hədəflərə çatmağa imkan verirmi?**

Mövcud dəyərləndirmələr göstərir ki, Qarabağ və Şərqi-Zəngəzurda bərpa olunan enerji potensialına görə, digər bölgələrdən qat-qat zəngindir. Bu bölgə hidroenerji, külək və günəş enerjisi, termal suların mənbələrinə görə, ölkə üzrə rersursların 30-40 faizinə malikdir. Həmin iqtisadi rayonlardan Qubadlı, Zəngilan, Cəbrayıl və Füzuli günəş enerjisinə görə, ən əlverişli potensiala malikdir və enerji gücünün həcmləri 7200 MVt-dan artıq qiymətləndirilir. Artıq Azərbaycan hökuməti ilə BP şirkəti arasında əldə edilmiş razılığa əsasən, Zəngilan-Cəbrayıl zonasında 240 MVt gücündə günəş elektrik stansiyasının tikintisinə hazırlıq işləri görülür və iyul ayında “Şəfəq” layihəsi üzrə günəş elektrik stansiyasının tikinti işlərinə başlanacaq. Layihə çərçivəsində tikinti işləri, təxminən 18 ay davam edəcək və 2026-cı ildə bu bölgədə ilk günəş enerjisi istifadəyə gətiriləcək.

Cari ilin mart ayında isə “Nobel Energy” şirkəti ilə imzalanmış sazişə əsasən, Cəbrayıl rayonunda 100 MVt gücündə günəş elektrik stansiyasının tikintisi və elektrik enerjisi istehsalı mərkəzi yaradılmasına dair saziş imzalanıb. “SOCAR Green” MMC ilə Birləşmiş Ərəb Əmirliklərinin “Masdar” şirkəti arasında əməkdaşlığa əsasən, “Meqa” layihəsi əsasında 2 qiqavat gücündə külək və günəş enerjisi layihələri icra olunmaqdadır.

Laçın və Kəlbəcərin dağlıq ərazilərində külək enerjisinin 2000 MVt həcmində texniki potensialının olduğu proqnozlaşdırılır. Hazırda həmin rayonların ərazisində 100 MVt gücündə tikintisi planlaşdırılan külək elektrik stansiyası layihəsi reallaşmaqdadır, digər stansiyaların tikintisi üzrə qiymətləndirmələr davam edir. Hidroenerji ehtiyatlarına görə isə Tərtərçay, Həkəri çayı və bu çayların qolları əsas resurs mənbələri hesab olunur.

İşğaldan azad edilmiş ərazilərin bərpası prosesinin mühüm tərkib hissəsi kimi enerji infrastrukturunun qurulması və enerji təhlükəsizliyinin təmin edilməsinə xüsusi əhəmiyyət verilir. Bu hədəfə uyğun olaraq elektrik enerjisinin istehsal güclərinin bərpası çərçivəsində Laçında, Kəlbəcərdə və Suqovuşanda bərpa edilən 20.2 MVt gücündə 4 su elektrik stansiyası artıq istismara verilib. Eyni zamanda, Cəbrayıl rayonu ərazisində, Araz çayı üzərində ümumi gücü Azərbaycan tərəfi üçün 140 MVt (100 MVt “Xudafərin”, 40 MVt “Qız Qalası”) olmaqla, iki su elektrik stansiyasının tikintisi davam etdirilir.

Hazırda Qarabağ Cənubi Koreyanın Ticarət və İnvestisiyaların Təşviqi Agentliyi işğaldan azad olunmuş ərazilərdə “Yaşıl iqtisadiyyat” quruculuğunda iştirak edir. İtaliya, Cənubi Koreya və Türkiyənin şirkətləri ilə də bərpa olunan enerji gücləri üzrə danışıqlar davam etdirilir. Türkiyə şirkətləri Laçın və Kəlbəcər rayonlarında bərpa olunan enerji layihələrinin iqtisadi əsaslandırma planını hazırlayıb və külək elektrik stansiyalarının inşasına başlanacaq.

Beləliklə, azad edilmiş ərazilərdə yaxın 2 ildə “yaşıl enerji” hubu formalaşmaqla 2026-2027-ci illərdə bərpa olunan enerjinin və hidrogenin Avropaya nəqli mümkün olacaq.

*E.CƏFƏRLİ*

# Susqunluğun səbəbi ...

## Tehran bəyan etdiyi “qırmızı xətt”ləri özü pozur

Qərbin Ermənistan üzərindən qurduğu oyunların əsl hədəfləri bəllidir. Belə ki, “Ermənistana dəstək” adı altında bölgəyə yerləşmək istəyən ABŞ-Aİ cütlüyü vaxtilə başlatdığı, sonradan isə yarımçıq qalan fəaliyyətini davam etdirmək istəyir. Bu fəaliyyət 30 ilə yaxın məhz Ermənistanın və separatçı xuntanın əli ilə həyata keçirilib. Başqa sözlə, illərlə Cənubi Qafqazda siyasi sabitliyin formalaşmasına, hərbi dincliyin yaranmasına, ən əsası iqtisadi inkişafa mane olan güclər yeni planlar qurur. 2020-ci il Vətən müharibəsi və 2023-cü il lokal antiterror tədbirləri ilə onların planlarını puç etmiş Azərbaycan bölgədə yeni siyasi-hərbi reallıqlar formalaşdırıb ki, Qərb bu yeni reallıqlarla barışmaq istəmir. Nəticədə, “Ermənistana dəstək” görüntüsü altında bölgəyə yeni demarşını hazırlayır.

Bu güclərin nəticə etibarı ilə hədəfləri bəllidir - Ermənistanın əli ilə bölgəni yeni münaqişəyə cəlb etmək ABŞ-Aİ cütlüyünün ilkin arzusudur. Müzakirə predmeti olan “hərbi pakt” isə ABŞ və Aİ-nin Ermənistanın əli ilə regiona təsir imkanlarını leqallaşdırmağa hədəflənib. Bu isə Azərbaycanla yanaşı, ümumilikdə region ölkələrinin maraqları ilə uzlaşmır. Çünki burada söhbət artıq yeni formatlı hərbi demarşdan gedir. Ermənistan ilə “müttəfiqlik” etmək istəyən qüvvələrin əsl məqsədi geostrateji əhəmiyyətə malik regiona nüfuz etməkdir.

## ABŞ-Aİ cütlüyünün planı...

Vurğulandığı kimi, qurulan planlar yalnız Azərbaycanın deyil, ümumilikdə regionətrafı dövlətlərin də milli maraları ilə uzlaşmır. Qərb arzularının təcəssümü kimi meydana çıxacaq bu “hərbi birlik” qarşıdakı dövrdə Aİ-nin Ermənistandakı “mülki missiya” adı altındakı kəşfiyyat qrupunun işini də leqallaşdıracaq - Qərb bu və ya digər şəkildə həmin kəşfiyyat qrupuna “müttəfiqlik” donu altında bir ad verəcək. Nəticədə, bölgədə təhlükə saçan yeni hərbi industriya yaradılacaq: bu birləşmənin əli ilə isə Aİ və ya ABŞ illərdir ki, planlaşdırdığı bir sıra məsələləri rahat şəkildə həyata keçirəcək. Azərbaycan, Rusiya, Türkiyə özünün etiraz səsini ucaldıb, bəyanatlar verib, hətta ABŞ dövlət katibi, Avropa Komissiyasının prezidenti Azərbaycan Prezidentinə zəng edərək izahat veriblər. Maraqlıdır ki, bu kimi ciddi bir məsələdə regionun digər dövlətlərinin isə zəif səsi eşidilmir - halbuki, İran və Gürcüstan da bu məsələdən böyük ziyan görəcək. Yaranma ehtimalı ortada olan hərbi pakt həm Gürcüstan, həm də İran üçün potensial təhlükə mənbəyidir. Ən aktual səbəblər isə:

- Bu hal regionun ticari maraqlarının, yeni rəqəmsal daşımacılıq imkanlarının hədəfə alınmasıdır;
- Müstəqil xarici siyasət kursu yürüdən dövlətlərə qarşı siyasi sabotajdır;
- Şərq-Qərb tranziti üzrə formalaşdırılan yeni iqtisadi münasibətlərin rentabelliyinin düşürülməsi cəhdidir;
- Ticari aortanın işinə mane olmaq üçün atılan addımlardır.

Beləliklə, ABŞ və Aİ-nin planı ilə ortaya çıxacaq bu “hərbi pakt” bütün region üçün təhdid yaradır.

## Gürcüstanın maraqları təhlükə qarşısındadır...

Bəli, danılmaz faktdır ki, Azərbaycan son 4 ildə Cənubi Qafqazda tamam fərqli bir mənzərə formalaşdırıb. Asiya ilə Avropanın “təbii körpüsü” adlandırılan, sivilizasiyaların, Şərq və Qərb mədəniyyətlərinin qovşağı sayılan Azərbaycan başəri dəyərlərin yaşadığımız region üçün spesifikləşdirilməsinə çalışır. Bu gün Cənubi Qafqazda sülh və sabitliyin təmin olunması ilkin mərhələdə Azərbaycanla yanaşı, Gürcüstan üçün də böyük üstünlüklər formalaşdırır. Burada da enerji, kommunikasiya və qarşılıqlı maraq doğuran digər məsələlər önə çıxır ki, regional səviyyədəki əməkdaşlıqlar yeni mərhələdə qlobal inkişaf konsepsiyasının aparıcı coğrafi indeksi kimi müəyyənləşə bilər. Bu baxımdan, Cənubi Qafqazın digər ölkəsi Gürcüstan da Azərbaycanın yaratdığı yeni mərhələnin - sabitlik və inkişaf mərhələsinin daha da şaxələndirilməsində, genişləndirilməsində maraqlı olmalıdır. Çünki iqtisadi əməkdaşlıqlar regionun təhlükəsizliyinin, sülhün və sabitliyin daha yüksək səviyyədə təminatının qarantı kimi çıxış edir. Azərbaycanın son antiterror tədbirləri ilə yaratdığı mənzərə regionun gələcəyinin yeni inkişaf strategiyası, hətta yol xəritəsi sayılır. Gürcüstan - Azərbaycan əməkdaşlığı uzun illərdir ki, strateji əsaslarla davam edir- Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri, Bakı-Tbilisi-Qars dəmir yolu və Orta Dəhliz kimi mühüm layihələr icra edilir. Ölkəmizin yaratdığı yeni mərhələ isə bu inkişafı daha da irəliyə daşımaq əzmindədir. Buna mane olmaq, iqtisadi uğurların qarşısını kəsmək istəyən ABŞ-Aİ cütlüyünün addımları bu mənada Gürcüstanın da mənafeyinə zərbədir. Amma rəsmi Tbilisi hələ ki, “susmağa” üstünlük verir...



## Tehran nəyi gözləyir?

Eyni hal İran üçün də aktualdır. Rəsmi Tehran indiyədək regiona kənar qüvvələrin gətirilməsi məsələsində ən çox “qırmızı xəttdən” danışan ölkə sayılırdı. Perspektivdə belə bir birliyin formalaşması ehtimalı belə İranın maraqlarını açıq şəkildə zərbə altına qoyur. Təsadüfi deyil ki, regiona yönəlik təhdidlərlə bağlı bir müddət öncə İran tərəfi öz narahatlığını dilə gətirmişdi. İranın müdafiə naziri Məhəmməd Rza Aştiani ilə erməni həmkarı Suren Papikyan arasındakı görüşdə Aştiani açıq şəkildə bildirmişdi ki, bölgəyə kənar dövlətlərin hərbi birləşmələrini cəlb etmək əks təsir göstərə bilər. M. R. Aştiani vurğulamışdı ki, regionu kənar dövlətlərin geosiyasi rəqabət meydanına çevirmək bölgənin bütün dövlətlərinin maraqlarına ziddir. Göründüyü kimi, İran özü də etiraf edir ki, Ermənistanın “əməkdaşlıq” pərdəsi altında ABŞ və ya Aİ-nin hərbi gücünü bölgəyə yerləşdirməsi Tehranın planlarına uyğun deyil. Perspektivdə həmin bölgəyə yerləşdirilən qüvvələrin məhz rəsmi Tehran üçün rəqiblərinin cızdığı yeni planlar olma ehtimalı da formalaşa bilər. Bu gün İrana qarşı aktiv sanksiyalar və embarqolar tətbiq edən Aİ, ABŞ, kollektiv Qərb onsuz da “mülki missiya” adı altında onun sərhədlərinin kənarında kəşfiyyat işləri aparır. Yeni dönəmdə Ermənistanın “hərbi pakt” üzərindən ABŞ və Aİ-ni leqal şəkildə öz sərhədləri daxilinə buraxması isə Tehrana qarşı hərbi planların aktiv fazaya qədəm qoymasını belə mümkün edə bilər. Amma təəssüf ki, İran yenə də səssizliyə üstünlük verir. Tehranın niyə etiraz etməməsi isə maraq doğurur...

## İran ABŞ və Fransa ilə sövdələşib?

O baxımdan ki, İranın susqunluğunu ermənipərəst Fransanın iddiaları müşayiət edir. Belə ki, Fransanın Ermənistandakı səfiri Olivye Dekotinyi bildirib ki, rəsmi Paris İranın “Ermənistanın ərazi bütövlüyü və suverenliyi ilə bağlı narahatlığını bölüşür”. Səfir bildirib ki, İran dəfələrlə Ermənistanın ərazi bütövlüyünə dəstəyini ifadə edib və Tehranın narahatlığını BMT-nin digər üzvləri də “bölüşməlidir”. Buradan anlaşılır ki, faktiki olaraq, Ermənistana yanaşmada region kənar qüvvələrin gətirilməsini özünün “qırmızı xətti” elan etmiş İranla regiona can atan Fransanın mövqeyi eynidir. Necə olur ki, vaxtilə Zəngilanda adi fermanı hansısa ölkənin “hərbi bazası” sayan İran indi sərhədində yerləşmiş Aİ-nin (faktiki olaraq NATO-nun) casus missiyasına səssiz qalır?

Görünən budur ki, İran səsləndirdiyi “qırmızı xəttlərə” özü riayət etmir. Dünənə qədər Fələstində həyatını itirən 30 min insan üzərindən özünə “təbliğat” yaradan İran indi Cənubi Qafqazda ABŞ-la oyun quraraq proseslərdən kənarda dayanmağa “çalışır”. Bunun müqabilində isə Vaşinqton sanksiya altında olan İranın neftlə bağlı maxinasiyalarına göz yumur. Eyni zamanda, bu məsələdə İran ilə Aİ arasındakı gizli sövdələşmənin də ştrixləri görünür. Cənubi Qafqazda baş verən proseslərdə də İranın Fransa ilə işbirliyi müşahidə olunur.

*SADİQ*

# Türkiyə yeni mərhələyə start verəcək

## Qiymət indeksinin azaldılması istiqamətində məqsədli addımlar atılacaq

Türkiyə hökuməti 2 ildən artıqdır ki, ölkənin iqtisadi-sosial həyatında sıxıntılara səbəb olan yüksək qiymət artımları ilə mübarizənin yeni mərhələsinə start vermək niyyətindədir. Rəcəb Tayyib Ərdoğan 12-ci İqtisadi İnkişaf Planı çərçivəsində ölkənin əsas hədəf prioritetlərindən biri kimi inflyasiyanın azalması istiqamətində hökumətin koordinasiyalı fəaliyyətinin artırılacağını bildirib. Ortamüddətli inkişaf proqramı çərçivəsində müəyyən edilmiş anti-inflyasiya tədbirlərinə əsasən, cari ilin ikinci yarısından etibarən qiymət indeksinin azaldılması istiqamətində məqsədli addımlar atılacaq.

Qeyd edək ki, Türkiyədə istehlak qiymətləri indeksinin artım tempi mart ayında yenidən sürətlənərək 2022-ci ilin noyabrından bəri yeni maksimuma çatıb. Ölkənin Statistika İnstitutunun (Türkstat) hesabatına görə, martda inflyasiya illik ifadədə 68,5 faiz təşkil edib. İstehlak qiymətlərinin artımının sürətlənməsinə, əsasən minimum əməkhaqqının yüksəldilməsi səbəb olub ki, bu da ölkədə inflyasiyanın əsas hərəkətverici qüvvəsi olan xidmətlərin kəskin bahalaşması ilə nəticələnib. Mart ayında ölkədə təhsil xidmətləri ötən ilin analoji dövrü ilə müqayisədə iki dəfədən çox, tibbi xidmətlər 1,8 dəfə, mehmanxana, kafe və restoranlarda qiymətlər 1,9 dəfə, kommunal xidmətlərin qiyməti 1,5 dəfə, nəqliyyat qiymətləri 1,8 dəfə bahalaşıb. Eyni zamanda, ötən ay ərzaq məhsullarının qiyməti 1,7 dəfə, geyim qiymətləri isə 1,5 dəfə artıb. Nəticədə hökumətin minimum əməkhaqqı artımları və digər sosial dəstək tədbirləri sayəsində əhalinin artan gəlirləri yenə də inflyasiyanın yeminə çevrilərək dəyərini itirir. Üstəlik, milli valyuta olan lirənin də dəyər itirməsi alıcılıq qabiliyyətini çətinləşdirir.




Bütün bunlar hökumətin narahatlığını artırır və Türkiyənin vitse-prezidenti Cevdet Yılmazın sədrliyi ilə keçirilən İqtisadi Koordinasiya Şurasının iclasında bu məsələyə bir daha əsas qayğılardan biri kimi diqqətin artırılması vurğulanıb.

**İnflyasiyanın artmasının səbəbi nədir?**

İlk öncə, bir məqamı qeyd edək ki, qardaş ölkədəki maliyyə sabitliyinin zəiflədilməsində siyasi faktorun rolu az deyil. Son illərdə dolların sürətlə bahalaşmasında valyuta bazarındakı süni spekulyasiyaların təsiri az olmayıb, ölkənin valyuta birjalarına müdaxilədə yerli və xarici bank-maliyyə təmsilçilərinin də rolu az deyil. R.T. Ərdoğanın "təpəçilər" (sələmçilər) dediyi qrupun Türk Lirəsinin ucuzlaşması üçün məqsədli şəkildə dollar ajiotajı yaratdığına dair kifayət qədər sübutlar var. Türkiyə Mərkəzi Bankının (TMB) dollar-TL məzənnəsini müəyyən etdikdən sonra "qara bazarda" 20-25 faizlə valyuta satışları da buna dəlalət edir. Bazar iştirakçıları, biznes qrupları süni dollar ajiotajı mühitində daha çox dollar almaq istəyir ki, bu da tələbi artırır, banklar və valyuta birjası dollar və avroya tələbi tam qarşılaya bilmədiyindən kiçik və orta biznesin bir qismi "qara bazar"a üz tutmalı olurlar. Bazardakı həmin spekulyatorlar da məqsədli şəkildə sələmçilərin ("təpəçilər") sayəsində TL-nin dəyərsizləşməsinə səbəb olur.

Ancaq bütün bunlara baxmayaraq, Türkiyədə yerli valyutanın ucuzlaşması, inflyasiyanın artmasında real iqtisadi mühit, ölkənin tədiyyə balansının cari vəziyyəti də əsaslı amillərdən biridir. Son illərdə Türkiyənin tədiyyə balansındakı cari kəsirin artması müşahidə edilir, ticarət əməliyyatlarında idxalın payı daha da artır. Ötən ilin fevral ayında baş vermiş dağıdıcı zəlzələdən sonra ölkənin ixracında kəsirin artması tədiyyə balansındakı kəsiri bir qədər də yüksəldib. 2023-cü ildə ölkədə ixracın həcmi 250 milyard dollar olsa da, idxal 320 milyard dollara yaxın olub. İnflyasiyanın strukturunda idxal amili ən azı 60 faiz yer tutur və xaricdən idxal olunan əmtəələrin bahalaşması bu səbəbdən bazar qiymətlərinə təsir edir.

**Türkiyə yüksək qiymət dalğalarını səngitməyə, ölkədə maliyyə sabitliyini möhkəmləndirməyə qadirdirmi?**

Türkiyənin iqtisadiyyatı güclüdür, ölkənin turizm sektoru, yüngül və yeyinti sənayesi, kənd təsərrüfatı, texnologiyalar və avtomobil və hərbi sənayesi iqtisadi inkişafın və maliyyə sabitliyinin təmin edilməsində mühüm rol oynayır. Hazırda turizmin daha da böyüməsi, zəlzələdən sonra iqtisadi dövriyyədən kənarda qalmış iri aqrar rayonların yenidən əlavə dəyərin yaranmasına töhfə verməsi, sənaye, xüsusilə də avtomobil ixracının artması qardaş ölkənin iqtisadiyyatının sabitləşməsi üçün ümidverici proqnozlar vəd edir.

2024-cü ildə Türkiyənin milli müdafiə və avtomobil sənayesinin ixracında xüsusi çəkisinin artması gözlənilir. Eyni zamanda, ötən il kəşf edilmiş qaz yataqlarında hasilat işlərinə başlanılması və qaz sənayesinin inkişafı, eləcə də neft hasilatı rayonlarında yanacaq istehsalı-emalı infrastrukturlarının qurulması, turizm sektorunun milli gəlirdə payının artması, tətbiq olunan vergi güzəştlərinin biznesin yaratdığı əlavə dəyərdə çəkisinin yüksəlməsi, digər sahələrdə inkişaf templəri Türkiyənin qarşıya qoyduğu hədəfə çatmağa zəmin yaradır. 2024-cü ilin birinci rübündə Türkiyə iqtisadiyyatı 5 faiz artıb, ilin sonunda artımın 8 faizə çatacağı gözlənilir. Yəni, ölkədə milli iqtisadi güc böyükdür.

Türkiyə Mərkəzi Bankı 2024-cü ilin sonuna inflyasiyanın 36 faizə qədər azalacağını proqnozlaşdırır. Yol xəritəsində əsas hədəflərdən olan anti-inflyasiya tədbirlərinə koordinasiyalı nəzarət buna imkan verə bilər.

*E.Cəfərli*

# NATO münaqişədə tərəf olmayacaq

*N.BAYRAMLI*

İki ildən çox davam edən Rusiya-Ukrayna müharibəsinin sonu hələ də görünmür. Bu müharibə region üçün ağır nəticələr verib. Sonu görünməyən müharibə indiyə qədər həm Rusiyaya, həm də Ukraynaya xeyli zərər vurub. Son zamanlar isə döyüşlərdə Rusiya ordusunun üstünlüyü artıb. Fevral ayında rus qoşunları Ukraynanın Avdiyevka şəhərini və digər bəzi yaşayış məntəqələrini ələ keçirib.

ABŞ və Avropa İttifaqı, eləcə də NATO Ukraynaya özünü müdafiə etmək üçün hərbi yardım göstərirlər. Müharibə başlayandan rəsmi Kiyevə milyardlarla dollar hərbi yardım edilib. Lakin ötən ilin ortalarından Qərbin hərbi yardımı xeyli alıb. Bu da son aylar Ukrayna ordusunun cəbhədə uğursuzluğunu şərtləndirən amildir. Artıq beynəlxalq ictimaiyyət anlayır ki, Ukrayna-Rusiya müharibəsi geosiyasi maraqlarına uyğundur. Bu maraqlar naminə Ukrayna xalqı və dövləti qurban verilir. Bir neçə ildir ki, rəsmi Kiyevə NATO-ya üzvlüklə bağlı vəd verilsə də, müharibə başlayandan sonra Qərb bu vədi yerinə yetirmədi. Əvəzində, Ukraynaya müəyyən yardımlar edilməklə ona dəstək görüntüsü yaradılır. NATO-nun Kiyevə açıq dəstək verməsi ilə bağlı beynəlxalq ictimaiyyətdən edilən çağırışlar da Qərb tərəfindən görməzdən gəlinir.

## Alyans yalnız Ukraynaya özünü müdafiə etməsi üçün dəstək verəcək

## Baş katib: Bizim Ukraynaya qoşun göndərmək planımız yoxdur



Yeri gəlmişkən, aprelin 4-də alyans ölkələrinin xarici işlər nazirlərinin Brüsseldə keçirilən görüşündən sonra keçirilən mətbuat konfransında NATO-nun Baş katibi Yens Stoltenberq bildirib ki, NATO Ukraynaya qoşun göndərmək və münaqişənin bir tərəfinə çevrilmək niyyətində deyil: "NATO münaqişənin tərəfi deyil və olmayacaq. Alyans Ukraynaya özünümüdafiə üçün hərbi dəstək verir. Biz bu fəaliyyəti daha da gücləndirməliyik. Xüsusilə də bu ölkəyə hava hücumundan müdafiə sistemləri göndərməliyik. Bizim Ukraynaya qoşun göndərmək planımız yoxdur". Görünən odur ki, Ukrayna müharibədə qurban olaraq qalacaq. NATO ölkələri, xüsusilə ABŞ münaqişəyə açıq şəkildə qoşulmanın fəsadlarını yaxşı anlayırlar. Bu, həmin ölkələr üçün itki, dağıntı və fəlakət olardı. Ona görə də, heç bir halda münaqişədə tərəf olmaq niyyətində deyillər.

Hətta Qərb dairələrində Ukraynanın güzəştə getməsi, münaqişənin dondurulması ilə bağlı fikir və təkliflərin sayı artmaqdadır. Kiyev isə bu variantı qətiyyən qəbul etmək istəmir. Bu səbəbdən rəsmi Kiyev Qərbdən narazılığını açıq-aydın ifadə edir. Bir neçə gün öncə Ukrayna Prezidentinin ofis rəhbərinin müşaviri Mixail Podolyak deyib ki, Qərb münaqişənin dondurulacağı ilə bağlı illüziyalara son qoymalı, ölkəmizin silah-sursatla təminatını gücləndirməlidir.
Onun sözlərinə görə, bunun üçün Qərbdəki müdafiə sənayesi komplekslərinin istehsal gücü artırılmalıdır. M. Podolyak bir qədər əvvəl Rusiya ordusunun ölkəsinin ərazisində sürətlə irəlilədiyi və Ukrayna hərbçilərinə mövqelərin müdafiəsi üçün fürsət vermədiyi barədə açıqlama verib. Podolyak "The Times" qəzetinə müsahibəsində də hərbi yardımın gecikməsinə görə ABŞ-a etiraz etmişdi: "Ukraynanın cəbhədəki hazırkı çətinlikləri Qərbin yavaş templə qərar verməsi və silahların kifayət qədər olmaması ilə bağlıdır. Rusiyanın qələbəsi ukraynalılar üçün milli fəlakət, Qərb ölkələri, xüsusən də ABŞ üçün rüsvayçılıq olardı".

Ukrayna Prezidenti Vladimir Zelenski isə xəbərdarlıq edib ki, yaxın aylarda Rusiyanın böyük hücumu başlaya bilər: "Söhbət mayın sonundan və ya iyundan gedir. Biz buna hazırlaşmalıyıq, nəinki vəziyyəti sabitləşdirməliyik, çünki tərəfdaşlar bəzən vəziyyəti sabitləşdirdiyimizə görə həqiqətən sevinirlər. Deyirəm ki, indi köməyə ehtiyacımız var".

## Blinken-Kuleba görüşü vəziyyəti dəyişdirməyəcək

Brüsseldə keçirilən NATO ölkələrinin xarici işlər nazirlərinin görüşündə Ukraynanın xarici işlər naziri Dmitri Kulebanın ABŞ-ın Dövlət katibi Antoni Blinkenlə görüşü olub. Bu barədə ABŞ Dövlət Departamentinin mətbuat xidmətinin rəhbəri Metyu Miller bildirib ki, tərəflər döyüş meydanındakı vəziyyəti, müttəfiqlər və tərəfdaşlarla koordinasiyada Ukraynanın Avratlantik inteqrasiya axtarışında irəliləyişini, eləcə də ölkənin enerji sektorunun gücləndirilməsi yollarını müzakirə ediblər. Bundan əlavə, Blinken bir daha Kiyevə kömək üçün əlavə maliyyə ayrılmasını təmin etmək üçün ABŞ Konqresi tərəfindən təcili fəaliyyətə ehtiyac olduğunu qeyd edib. Rəsmi açqlamadan fərqli olaraq, şübhəsiz ki, Kuleba Kiyevin narahatlığını və narazılığını Blinkenə çatdırıb, verilən vədlərin yerinə yetirilməsini istəyib. Öz növbəsində, ABŞ yəqin ki, bundan sonra da vədlər verməyi davam etdirəcək. Olan isə Ukrayna xalqına olacaq, müharibənin fəlakətini yaşamaqda davam edəcək.

# "Ziyanlı" Cəmil Həsənlinin pulgirliyi...

## Antimilli şuranın "fəxri qoca"sı Kərimlinin "fransız gəliri"nə şərik olmaq istəyir

Qondarma "Milil şura" üzvlərinin özlərinin belə unutduqları marionet "fəxri qoca"sı Cəmil Həsənli deyəsən yenidən "zühur" etməyə qərar verib. Uzun müddətdir ki, hətta Əli Kərimlinin nəzarətində olan sosial şəbəkə kanallarının belə yaddan çıxartdığı Cəmil Həsənli deyəsən yenidən özünü yada salmaq üçün olmayan "ziyasını" ortaya qoyur. "Siyasi karyerası" xainlik və dönüklük üzərində qurulmuş və puldan ötrü hər kəslə ittifaqa girmək kimi xüsusi bacarığı olan C. Həsənlinin xarakterinə uyğun danışdığı heç kimə sirr deyil - boş fikirlər, yalan və pula hədəflənmiş arzular, qısqanclıqdan doğan iddialar onun əsas həyat manerası sayılır. Paşinyan haqqında danışanda "təmiz adam" deyən, Azərbaycanın uğurlarını pisləmək üçün fürsət axtaran, min bir qapıda dolanan Həsənli bu dəfə də özünü ifşa edib - danışanda "demokratiya" sözü dilindən düşməyən "fəxri qoca" Fransaya yarınmaq üçün əsl simasını ortaya qoyub. O, sosial şəbəkələrdə Azərbaycanın təşəbbüsü ilə Bakıda yaradılan və əsas məqsədi kolonializmin, yeni müstəmləkəçiliyin yeni təzahürlərinə qarşı mübarizə aparmaq, müstəmləkəçilikdən əziyyət çəkən xalqları dəstəkləmək, o xalqların hüquqi əsaslar üzərində azadlığa qovuşmasını təmin etmək olan Bakı Təşəbbüs Qrupunu hədəfə alıb.

Hər fasildə bir "gülə" qonmağın peşəkarı olan C.Həsənli deyəsən pulun iyini, qoxusunu duyub ki, özünü Ə.Kərimlinin gözünə şirin göstərməyə çalışır - Fransanın "maraqlarını" qoruduğunu önə çıxarır. Azərbaycanın neokolonializmə qarşı mübarizəsi və ədalətli yanaşması Cəmil Həsənlini niyə narahat edir? Bəs, illərdir "demokratiya balladası" oxuyan C.Həsənli özünün ideallarına niyə xəyanət edir? Axı, Fransa müstəmləkəçiliyi altında əzilən xalqların da tələb etdiyi məhz demokratiya, azadlıq və müstəqillikdir. C.Həsənlinin buna qarşı çıxması elə özü kimi paradoks deyilmi?

Səbəb bəllidir - son zamanlarda, Ə.Kərimlinin Fransadakı əlaltısı Qənimət Zahidin xətti ilə pul qazandığını eşidən C.Həsənli bu yolla özünün payını istəyir. Yoxsa ki, Fransa müstəmləkəçiliyindən, Ermənistanın işğalçı siyasətindən bir dəfə də bəhs etməyən C.Həsənlinin birdən-birə bu boyda özünüifşası nəyə əsaslana bilər?

Görünən budur ki, adını "akademik" qoymuş Cəmil Həsənli növbəti dəfə "ziyalı" yox, "ziyanlı" olduğunu ortaya qoyur. Redikül düşərgənin qondarma şurasının qısır təfəkkürü puldan, maddi gəlirdən başqa heç nəyi əxz edə bilmir. Qondarma təşkilatın marionet "fəxri qoca"sının belə bir paylaşım etməsi və bununla da Əli Kərimlinin gözündə ucalmağa, gələn pulun ucundan-qırağından dadınmağa çalışması artıq onun şəxsçi mənada hansı deqradasiyalara uğradığını bir daha təsdiqləyir...

*Mənsur...*

# Puç ömrün aqibəti

## Lev Nikolayeviç Tolstoyun "İvan İliçin ölümü" povesti haqqında

**əvvəli ötən sayımızda**

Əlbəttə, İvan İliç də ömrünü onlar kimi yaşayıb. Onun da həyatının orta dirəyi, mənəvi istinad nöqtəsi, Allaha, peyğəmbərə, dinə dəruni inamı olmayıb, o da öz maraqlarını hər şeydən, hər kəsdən üstün bilib, məhkumlara, məhbuslara divan tutmasa belə onların acılarını qəlbinə yaxın buraxmayıb, başqalarından üstün olduğunu duymaqdan, insanların taleyinə sərəncam verməkdən zövq alıb. Bu sayaq zövqün ağuşunda hətta kimisə ədalət məhkəməsinin caynağından almaq, zindandan buraxdırmaq belə iyrənc bir təşəxxüsdür, qatı bir eqoizmdir.

Nəticədə əcəl İvan İliçi hazırlıqsız yaxalayıb, o, yer üzündəki bütün dayaq nöqtələrindən - sağlam canından, vəzifəsindən, sərvətindən, dəbdəbəli mülkündən, dostlarından, həmkarlarından, hətta doğmalarından, ailəsindən gözgörəti məhrum olandan sonra söykənməyə bir istinadgah, bir həqiqət, döyməyə bir təsəlli qapısı tapmır. Allaha, dediyim kimi, inanmır, dini duyğudan, saf mərhəmətdən məhrumdur, hərçənd bunlar onun Tanrıdan gileylənməyinə, Allahdan onu bu dünyaya nədən ötrü çağırıb sonra da belə əzablara düçar elədiyini soruşmağına, bir sözlə, inanmadığı Allaha qarşı üsyana qalxmağına mane olmur. Özü də bilə-bilə ki, verdiyi asi suallara heç vaxt cavab almayacaq...

Yadımdadır, mən yalnız üçüncü oxunuşda bu əsərin damarını tutmağa başladım. Bu, təxminən otuz il (bəlkə bir az da artıq) bundan əvvəl baş verib. Bilindiyi kimi, Tolstoy ahıl çağlarında yazdığı povestlərin əksərinə İncil ayələrindən epiqraflar gətirir. Bu əsərdə isə belə bir istinad yoxdur. Səbəbini özümə aydınlaşdırmaq üçün povesti üçüncü dəfə oxuyanda əsərin İncillə əlaqəsini tapdım.

Deyingən, zəhlətökən arvadı xəstələndiyinə görə də İvan İliçi günahkar bilir, evdəki dinc mühitə xələl gətirdiyi üçün onu qınayır (guya İvan İliç məhz arvadının dincliyini pozmaq üçün xəstələnib), bu səbəbdən onu zor-güc məşhur bir həkimin qəbuluna göndərir. Bax elə bu səhnədə əsərin dini mahiyyəti açılır.

Tolstoy yazır ki, İvan İliç müttəhimlərlə necə davranır, onları nə sayaq, hansı ədayla sorğu-suala çəkirdisə, həkim də onunla eynən elə davranır, onu ölümə məhkum zavallı bir məhbus kimi dindirirdi!

Bu, artıq ilahi məhkəmədir, həkimin timsalında onu Allah özü mühakimə eləyir!..

Həmin yerə çatanda İsa peyğəmbərin dağüstü moizəsindən bir ayə qulaqlarımda səsləndi: "Suçlamayın ki, suçlanmayasınız; başqasına hansı hökmü versəniz, özünüzə də həmin cəza kəsiləcək".

Bu məqam, bu səhnə, zənnimcə, povestin açarıdır.

***

Ölüm səhnəsi Tolstoyun çox əsərində var, çünki ölümün mahiyyəti onu hər mövzudan artıq düşündürürdü. Əgər "Hərb və sülh" romanında ölüm knyaz Andreyin üzünə əbədiyyət aləminin qapılarını açır, onu həqiqətin dərkinə aparıb çıxarırsa, İvan İliçin tədrici ölümü onun dünyayla bağlarını bir-bir qırır, onu yalan üstündə qurulmuş daha bir oyuna salır. Xəstə məmur ona pul ağacı kimi baxan arvadına, atasının əzablarına görə təqsirkar olmadığını dilə gətirməklə vicdanını ovudub özünə bəraət qazandıran qızına belə nifrət bəsləyir. Knyaz Andreyin üzünə cənnət darvazalarını açan ölüm onun üzünə bütün qapıları bağlayır.

İvan İliç istəyir ki, adamların ona canı yansın, kimsə ona rəhm eləsin, mərhəmət göstərsin, kiminsə dizinə başını qoyub hönkürə bilsin. Fəqət düzgün yaşanmamış ömründə məhkəmə müstəntiqi belə bir kapital toplamayıb, buna görə də indi onun əcəllə alverə girməyə, ruhuna sərmayə qoymağa heç bir mənəvi sərvəti yoxdur. İndi o, canının sağ vaxtında bəlkə heç adam yerinə qoymadığı nökəri Gerasimin şəfqətinə möhtac qalıb. Ona yalan danışmayan, onu aldatmağa çalışmayan, eldən gələn bir səmimiyyətlə "gec-tez hamımız öləcəyik" deyib ağasına təsəlli verən tək adam Gerasimdir - "Hərb və sülh"dəki Platon Karatayevin varislərindən biri, "Mumu" qəhrəmanının adaşı. Tolstoy həmişə olduğu kimi burada da xalq ruhuna, el müdrikliyinə rəğbət bəsləyir, öz qəhrəmanına da ölüm ayağında məhz bu dərmanla, iksirlə azacıq dinclik, rahatlıq verir.

Müəllif göstərir ki, insanın ölümü onun yaşadığı həyatın məntiqi sonluğudur. Necə ömür sürmüsənsə, elə də öləcəksən.

***

İyirminci əsrin böyük filosofu, ekzistensializmin atalarından sayılan Martin Haydegger deyirdi ki, insanın gerçək mahiyyəti ölümüylə təkbətək qalıb göz-gözə gələndə açılır. Ölümün hüdudsuz üfüqləri, yoxluğun sonsuz boşluğu qarşısında fərd öz ekzistensiyasını həm ifadə, həm dərk eləyir.

Ömrü boyu saxta, yalan gerçəkliklər arasında baş girləmiş, insanları suçlamaqla eqosunu bəsləmiş məhkəmə məmurunun indi bir qarışqanın taleyinə hökm verəcək qədər gücü, səlahiyyəti qalmayıb. İndi onun özünə ölüm hökmü kəsilib. Əcəlin müdaxiləsiylə həqiqət zühur eləyib, maya örtüyü İvan İliçin üzündən götürülüb.

Ölüm onun varlığını yalanlardan soyundurub İvan İliçi çılpaq mahiyyətiylə üz-üzə qoyub. Məlum olur ki, onun nə dostu var, nə də doğması. Əslində, hamı onun tezliklə ölüb qurtarmağını gözləyir, hərçənd üzdə təskinlik verib sağalacağını deyirlər. Həmkarları onun xatirinə adicə kart oyununu, qumar məclisini belə təxirə salmırlar. Arvadını isə narahat eləyən tək bircə məsələ var: görəsən, ərinin çəkdiyi əzabların hesabına onun təqaüdü az da olsa artırıla bilərmi?

Qəribədir ki, İvan İliçin başına gələn qəza məhz ən sevincli günündə, gücünün, qüdrətinin, rifahının zirvəyə çatmaqda olduğu bir məqamda onu tapır. Bu, nəyə işarədir - həyatın bizə şərbətlə zəhəri, nəşəylə ələmi bir qabda verdiyinəmi, yoxsa maddi nemətlərin, dünya malının etibarsızlığınamı?..

***

Əgər Tolstoy pessimist bir mütəfəkkir olsaydı, Allaha, ruha, əbədiyyətə inanmasaydı, bu povesti ən bədbin bir əsər kimi, tutalım, Kafkanın soyuq, qaranlıq fəzasında sönük ulduzlar sayağı dövr eləyən əsərlərdən biri kimi yozardıq: insan ölümə məhkumdur, kainatdan heç bir çıxış yolu yoxdur, həyatın sonu faciədir, yaxşı, ya pis yaşamağın aqibəti eynidir. Fəqət Tolstoyun povesti nə qədər ağır, nə qədər bədbin, nə qədər depressiv olsa da, süjet arxasından müəllifin amansız hökmü aydın eşidilir: imanla, inancla yaşanmayan ömrün sonu beləcə puçdur, insan bütün həyatını ölümün məşqi kimi yaşamalıdır.

İvan İliç ömrünü doğru-düzgün yaşadığına özünü inandırmağa çalışsa da, alınmır, son nəfəsində yanlış həyat sürdüyü ilə barışmağa məcbur olur. Gimnazist oğlu huşa getmiş yarımcan atasının əlini öpüb göz yaşı tökəndə İvan İliçin qəlbində ona dərindən dərin, müdhiş bir mərhəmət, şəfqət baş qaldırır. Bəlkə də o, həyatı boyu heç kimə belə acımayıb. Bu mərhəmət onun əzablarını yüngülləşdirir, əcəl qarşısında tərksilah olunmuş yaralı canını tənhalıq cəhənnəmindən az da olsa qurtarır.

Oğlunun göz yaşları onun can verməsi üçün bəlkə də sonuncu şərt, son təkan olur. Övladının göz yaşında islanıb yuyunan ata, ola bilsin, bu dünyadan arınıb gedir...

***

Sonda İvan İliç ağrısını, əzabını unudur, daha doğrusu, ölüm ağrı mərhələsini keçir, ölümcül xəstə cismani həyatla ruhani həyat arasındakı neytral zolağa girir. Burada artıq nə ağrı var, nə əzab, nə ölüm var, nə də ölüm qorxusu. Vahimə saçan "Arzamas xofu" burada müdhiş qüdrətini, zəhərli təsirini itirib gücdən düşür.

Əvəzində ölənin gözünə işıq tutan nur topası var. Başının üstünü kəsdirənlər üçün canvermə prosesi hələ iki saat da çəkir, ancaq İvan İliçdən ötrü ölüm artıq geridə qalıb. Kimsə "Qurtardı" deyəndə İvan İliç ürəyində onu təkrar söyləyir: "Bəli, ölüm qurtardı, daha ölüm yoxdur".

...Qədim stoiklər də deyirdilər ki, ölüm insana həyatla birgə verilir, həyat tükənəndə ölüm də bitir. Eynən İvan İliçin ölümü kimi.



**F.Uğurlu**

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"Pressİnform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Qasid" MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
"Türküstan Media Group" MMC – 050 241-48-23
"Region Press" MMC – 055 316-79-01
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**




## Ramazan ayı 27-ci günün duası

**"Allahummərzuqni fihi fəzlə leylətil-Qədr. Və səyyir umuri fihi minəl-usri iləl-yusr. Vəqbəl məaziri və huttə ənniz-zənbə vəl-vizr. Ya rəufən bi-ibadihis-salihin".**

**"İlahi, bu gün mənə Qədr gecəsinin fəzilətini nəsib et! Bu gün mənim işlərimi çətinlikdən asanlığa doğru yönəlt! Üzrümü qəbul et, günah yükünü üstümdən götür! Ey saleh bəndələrinə qarşı mehriban olan Allah!".**




# Cümhuriyyət inqilablarının şahidi...

## "Anadolu Agentliyi" 104 yaşında

Bu gün dünya informasiya məkanında layiqli yer tutan "Anadolu Agentliyi"nin yaradılmasından 104 il ötür. Agentlik qərəzsiz və ədalətli xəbər siyasəti yürütməklə qazandığı şöhrətini qoruyub saxlayır. Türkiyədə 86, ölkə xaricində 40-dan çox büroya sahib olan "Anadolu Agentliyi" xəbərlərini 13 dildə yayır. Agentlik orta hesabla hər gün 4500 xəbər, fotomaterial və videoinformasiya yayır.

"Anadolu Agentliyi"nin tarixi Türkiyə Cümhuriyyətinin tarixi ilə demək olar ki, eynidir. Türkiyə Böyük Millət Məclisinin açılışına 17 gün qalmış, 6 aprel 1920-ci ildə qurulan "Anadolu Agentliyi", Türkiyə Böyük Millət Məclisinin qəbul etdiyi ilk qanunları açıqlayıb. Bu mənada "Anadolu Agentliyi" Milli Mübarizənin və Qurtuluş Savaşının hər mərhələsinin, Cümhuriyyət inqilablarının şahidi olub.

1920-ci il martın 16-da İstanbulun rəsmi işğalı və Parlamentin bağlanması ilə bağlı Mustafa Kamal Paşa Ankarada toplanacaq Məclis üçün seçkilərin keçiriləcəyini vilayətlərə bildirib. Artıq İstanbulda qalmağın mümkün olmadığını görən bəzi ziyalılar bir müddət Milli Mübarizəyə qoşulmaq üçün yollar axtarırdılar. Bu inkişaf həm də "Anadolu Agentliyi"nin yaranmasına gətirib çıxarır.

İki ayrı karvanda Ankaraya gedən jurnalist Yunus Nadi (Abalıoğlu) və jurnalist yazar Halide Edip (Adıvar) martın 31-də Geyvedə görüşürlər. Vağzalda fasilə zamanı Ankaraya gedən kimi "agentlik təşkilatı"nın yaradılmasının zəruriliyini müzakirə edirlər. Agentliyin adından danışarkən onlar "Türk", "Ankara", "Anadolu" variantları arasında "Anadolu Agentliyi" adının seçilməsinə qərar verirlər. Mustafa Kamal Paşanın qərargahı olan "Ziraat Məktəbi"ndə (indiki Dövlət Meteorologiya İşləri Baş İdarəsi) "Anadolu Agentliyi"nin yaradılması gündəmə gətirildi.

**Agentliyin Qurtuluş Savaşındakı vəzifəsi**

Daxildə mübarizə aparan, xarici aləmdən xəbəri olmayan bir xalqı ölkədə və dünyada baş verən hadisələrdən xəbərdar etmək, bəzi xarici və İstanbul qəzetlərinin müti mövqeləri ilə mübarizə aparmaq lazım idi. Milli mübarizəni xaricdə müdafiə etmək, Türkiyənin haqlı tələblərini ictimaiyyətə çatdırmaq, bəzi dairələrin ona qarşı oynadığı oyunları puç etmək lazım idi. "Anadolu Agency Türk Anonim Şirketi" 1925-ci il martın 1-də Atatürkün yaxın dostlar qrupuna "Anadolu Agentliyi"ni Qərb mənasında xəbər agentliyi etmək üçün tapşırıq verdikdə yaradılıb. "Anadolu Agentliyi" belə bir strukturlaşma ilə muxtar status qazandı ki, o zamanlar hətta Qərb ölkələrində belə status yox idi.

**"Anadolu"nun strukturu...**

"Anadolu Agentliyi" (AA) həm də özünəməxsus korporativ struktura malikdir. Agentlik 1920-ci il aprelin 6-da Qazi Mustafa Kamalın dövlətin qurulması zamanı Nümayəndələr Komitəsinin sədri olaraq çıxardığı sirkulyarla fəaliyyətə başlayıb. Agentlik əvvəlcə az heyətlə işləyən müstəqil təşkilat idi. Mustafa Kamal Atatürk agentliklə çox maraqlanır və ilk dövrdə yayımlanan xəbərləri şəxsən araşdırmışdı. Agentlik yaradılarkən Türkiyə Böyük Millət Məclisi açılmadığından agentliyin təsis qanunu yox idi. "Anadolu Agentliyi"nin Mətbuat və Kəşfiyyat Baş İdarəsi (indiki Mətbuat və İnformasiya Baş İdarəsi) yaradıldıqdan sonra bu baş idarənin tərkibində müdirlik kimi fəaliyyət göstərib. Bununla da agentlik dövlət təşkilatı strukturunda öz yerini tutur. Daha qərəzsiz və avtonom hesabat verə bilmək üçün 1925-ci ildə səhmdar cəmiyyətə çevrilən "Anadolu Agentliyi"nin dövlətlə əlaqəsi hələ də kəsilməyib. "Anadolu Agentliyi"nə dövlət yardımı bu gün də davam edir.

**Yeganə BAYRAMOVA**

# Afinada başlanan yarış...

Bu gün idmansevərlər üçün əlamətdar bir gündür. Çünki 128 il öncə -1896-cı ildə aprelin 6-da Afinada ilk müasir Olimpiya Oyunları keçirilib. Olimpiya Oyunları dedikdə yalnız idman yarışlarını, idman həyatının insanlara bəxş etdiyi dəyərləri dar mənada yox, geniş, fəlsəfi anlayış kimi qəbul etmək lazımdır.

Olimpiya Oyunlarının böyüklüyü idmançıların təkcə yarışlarda göstərdikləri idman nəticələri deyil, bu oyunlarda idmançı mənəviyyatı, onun kamil bir insan kimi formalaşması prosesinin reallaşdırılması, müqəddəs ideyalara xidmət etməsindən irəli gəlir.

Qədim Yunanıstanda mövcud olmuş Olimpiya Oyunlarının bərpa olunması təşəbbüsünü XIX əsrin sonlarında fransız ictimai xadimi baron Pyer de Kuberten təklif etmişdi. Onun dövründə Yay Olimpiya Oyunları kimi tanınan bu beynəlxalq tədbir 1896-cı ildən etibarən hər 4 ildən bir keçirilir.

Olimpiya hərəkatı sülh və əmin-amanlıqla daim yanaşı durur. Qədim Yunanıstanda Olimpiya Oyunlarının yaranmasından söz gedərkən oyunların əsası, bir növ, dinə sitayiş, ibadət nəzəriyyəsinə əsaslanırdı. Orada stadion, teatr və məbəd müqəddəs yer sayılırdı. Burada iki şəhərdə - Olimpiya və Delfidə hər 4 ildən bir xoş məramlı oyunlar keçirilirdi. Bu şəhərlərdə keçirilən oyunlardan əlavə, şeir, mahnı, ədəbiyyat və incəsənət üzrə istedadlı şəxslər tərəfindən bilik, bacarıq və qabiliyyətləri nümayiş olunurdu.

Olimpiya Oyunlarında fiziki bacarıq mənəviyyatla, incəsənətlə vəhdət təşkil edirdi. Olimpiya antik dövrdən başlayaraq uzun, enişli-yoxuşlu yol keçib, zəmanəmizə gəlib-çatıb və bu yolda müxtəlif maneələrlə rastlaşsa da, öz əzəli mahiyyətini qoruyaraq saxlayıb. Eyni zamanda Olimpiya Oyunları ümumbəşəri nüfuz sahibi olmaqla, dünya xalqlarının dərin məhəbbətini də qazanıb.



## İlk Olimpiya Oyunlarının keçirildiyi gündür

Qeyd edək ki, növbəti Yay Olimpiya Oyunları 2024-cü il iyulun 26-dan avqustun 11-dək Parisdə baş tutacaq.

**"Bakı-2015" dünya mediasında...**

Son illər ölkəmizdə də idmanın inkişafı istiqamətində atılan addımlar göz qabağındadır. Azərbaycan bu gün dünyada idman dövləti kimi tanınır. Bu sahədə uğurlarımız beynəlxalq yarışlarda əldə etdiyimiz medallarla ölçülür. İdmanın kütləviliyi təmin edilir və Azərbaycanda Olimpiya hərəkatı çox yüksək səviyyədədir.

"İnsidethegames.biz" portalı Azərbaycanın 2015-ci ildə I Avropa Oyunlarına yüksək səviyyəli ev sahibliyi etməsindən yazıb. Məqalədə əvvəlcə Azərbaycanın Avropa Olimpiya Komitələrinin (EOC) 41-ci Baş Assambleyasında 48 səsdən 38-ni toplayaraq Avropanın özünəməxsus ilk yarışını qəbul etməyə haqq qazandığı vurğulanıb.

Yazıda Avropa Olimpiya Komitələrinin o zamankı prezidenti Patrik Hikkinin fikirlərinə də yer verilib: "Belə tədbirlərə ev sahibliyi edən bir çox şəhər hazırlığa 5-7 il vaxt sərf edirlər. Bakı isə cəmi 30 aylıq hazırlıqdan sonra qitə miqyasında bu möhtəşəm Oyunları yüksək səviyyədə təşkil etməklə Avropa Olimpiya Hərəkatını şərəfləndirdi".

Qeyd olunub ki, bu yarış həm də Azərbaycan ilə Avropa ölkələri arasında iqtisadi, siyasi, idman sahələrində əməkdaşlığın gücləndirilməsi, turizmin inkişafı üçün əlverişli şərait yaradıb.

Yazıda Azərbaycan komandasının 56 medalla (21 qızıl, 15 gümüş və 20 bürünc) Rusiyadan (164 medal) sonra ümumi sıralamada 2-ci yeri tutması xatırladılıb.

Qeyd edək ki, IV Avropa Oyunları 2027-ci ildə Türkiyədə keçiriləcək. Məqalədə 2022-ci ildə Konyanın ev sahibliyi etdiyi V İslam Həmrəyliyi Oyunlarındakı təşkilatçılıq uğurunu əsas götürən Türkiyənin Azərbaycanın I Avropa Oyunlarında müəyyən etdiyi standartlara cavab verməyə çalışacağı diqqətə çatdırılıb.

Sonda isə "Bakı 2015"in idmançılar, ekspertlər və media tərəfindən dünyada nadir hadisə kimi qiymətləndirilməsi xüsusi vurğulanıb.






# Azercell müştəriləri üçün innovativ həlləri əlçatan etməyə davam edir

Texnologiyaların sürətlə inkişaf etdiyi dövrdə mobil operator 2023-cü ilidə də abunəçilərə daha çevik müştəri təcrübəsi imkanları yaratmaq məqsədilə bir sıra yeni məhsul və həllər təqdim edib. Vətəndaşlar, sahibkarlar və dövlət qurumlarının əməkdaşları üçün fiziki SIM kart tələb etməyən eSIM "Asan İmza" xidməti istifadəyə verilib. Azərbaycan telekommunikasiyasında ilk dəfə tətbiq olunan eSIM "Asan İmza" yeni nəsil SIM texnologiyasını və əl imzasına bərabər tutulan "Asan İmza" mobil elektron imzanı özündə birləşdirir.

Süni zəkaya inteqrasiya edən dövrdə mobil operator ölkədə ilk dəfə Azərbaycan dilində bot tərtib edərək təkmilləşdirilmiş Virtual Assistent xidmətini müştərilərin istifadəsinə verib.

Azercell nömrəsi əldə etmək istəyən müştərilərə faizsiz hissə-hissə ödəmə imkanı yaradan Taksit layihəsi təqdim olunub.

Lider mobil operatorun abunəçiləri artıq 160 ölkədə 390-dən çox şəbəkəni əhatə etməklə yenilənmiş rouminq xidmətindən yaralana bilirlər. 2023-cü ildə əcnəbi vətəndaşlar və ölkəmizin qonaqları üçün xüsusi "Turist" tarifləri də təklif olunub.

Müştərilərinə operativ və keyfiyyətli şəkildə xidmət göstərməyi hədəfləyən Azercell-in Əlaqə Mərkəzi 2023-cü il ərzində ümumilikdə 3 milyona yaxın zəng qəbul edib. Ötən il ərzində şirkətə onlayn kanallar üzərindən 1,5 milyona yaxın müraciət daxil olub ki, onlardan təxminən 440 mini sosial şəbəkələrdən ünvanlandırılıb. Sadalanan tədbirlərin nəticəsi olaraq 2023-cü il ərzində Azercell-in Əlaqə Mərkəzinin Müştəri Məmnuniyyəti indeksi 94,9%-ə çatıb.

Hesabat ilində şirkətin Bakı və Bölgə müştəri xidmətləri ofislərində, həmçinin Mobil Müştəri Xidmətləri (MMX) tərəfindən ümumilikdə 850 mindən çox abunəçiyə xidmət göstərilib.

Ölkədə biznes ekosisteminin inkişafına dəstək verən mobil operator 2023-cü ildə 40 mindən artıq hüquqi şəxsə xidmət göstərib. Azercell Biznes-in korporativ abunəçiləri üçün təqdim etdiyi eksklüziv xidmətlər nəticəsində internet istifadəçilərinin sayında 26%-dən çox artım əldə olunub, aktiv istifadəçi sayı isə 600 mini ötüb.

Müasir texnologiyaların tətbiqi ilə ölkədə kənd təsərrüfatının inkişafına töhfə verən Azercell Biznes 2023-cü ildə Əşyaların İnterneti (IoT) tipli "Suvarmaya nəzarət sistemi" həllini təqdim edib. İnnovativ həll avtomatlaşdırılmış idarəetmə proseslərindən faydalanaraq daha çox məhsulun hasilatına və ən əsası, su resurslarından səmərəli istifadə istiqamətində effektiv nəzarətə şərait yaradacaq.

Lider mobil operator biznes tərəfdaşlarının işgüzar fəaliyyətini daha səmərəli şəkildə təşkil etməyə dəstək məqsədilə innovativ "Azercell Biznes" tətbiqi və veb platformasını istifadəyə verib.

Azercell xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti və Dövlət Təhlükəsizliyi Xidmətinin birgə təşkilatçılığı ilə keçirilən "Critical Infrastructure Defence Challenge 2023" (CIDC-2023) müsabiqəsində vitse-çempion olaraq ölkədə kibertəhlükəsizlik sahəsində üçlüyə daxil olub.

2023-cü ildə Azercell-in ölkənin lider mobil operatoru kimi mövqeyini daha da gücləndirəcək, abunəçilərə yeni xidmətlər və daha geniş bağlantı imkanları üçün zəmin yaradacaq telekommunikasiya nəhəngi "e&International"-la strateji tərəfdaşlıq qurulub.

"Azercell Telekom" Azərbaycanda ilk dəfə olaraq dünyanın aparıcı Big Data həlli təminatçısı "Cloudera" şirkəti ilə əməkdaşlığa başlayıb. Lider mobil operator yüksək hədəflərə çatmaq üçün məlumat arxitekturasını yeniləyərək "Cloudera" Məlumat Platforması ilə biznes proseslərini 5 dəfə sürətləndirib.

2023-cü ildə ölkənin aparıcı mobil operatorunun Müştəri Məmnuniyyəti Sistemi üzrə beynəlxalq ISO 10002:2018 sertifikatına uyğunluğu növbəti dəfə təsdiq edilib. Həmçinin, "Azercell Telekom" MMC ISO 37001:2016 "Antikorrupsiya idarəetmə sistemi" standartları üzrə sertifikatını uğurla yeniləyib. Müştəri Xidmətləri sahəsində beynəlxalq standartlara uyğun fəaliyyət göstərən Azercell ötən il ISO 18295-1:2017 : Əlaqə Mərkəzlərinin idarə edilməsi sahəsində uyğunluq" sertifikatına da layiq görülüb.

2023-cü ildə Azercell dünya işgüzar aləmində ən nüfuzlu mükafatlardan birinə layiq görülərək "STEVIE" beynəlxalq biznes mükafatları tərəfindən "İlin ən innovativ texnoloji şirkəti" seçilib.

# İddiaçılar Turniri: Nicat Abasov ilk görüşdə heç-heçəyə razılaşıb




Kanadanın Toronto şəhərində şahmat üzrə İddiaçılar Turnirinə start verilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan şahmatçısı Nicat Abasov ilk görüşündə rusiyalı Yan Nepomnyaşi ilə qarşılaşıb. Nicat bu görüşü ağ fiqurlarla oynayıb. Tərəflər partiyanın 34-cü gedişində heç-heçəyə razılaşıblar.

Qeyd edək ki, turnirə aprelin 22-də yekun vurulacaq.

# Azərbaycan idmançısı atçılıq üzrə beynəlxalq yarışda iki medal qazanıb

Azərbaycan idmançısı Aydın Əlibəyov Rusiyanın paytaxtı Moskva şəhərində keçirilən atçılığın dresaj növü üzrə cavan və böyük əsas atlar ("Qızıl Tur") arasında "Maksima Masters" çempionatında iki qızıl medal qazanıb.

Gənclər və İdman Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, idmançı buna cavan atlar arasında keçirilən yarışda nail olub. O, turnirdə 3 atla iştirak edir.

Qeyd edək ki, "Maksima Masters" çempionatı aprelin 7-dək davam edəcək.




Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**598-37-76, 498-82-21**
**498-81-24, 498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 5600**
**Sifariş: 739**
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova